

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Xalqın milli sərvəti - Ana dilimiz!




10


# SƏS

№ 069 (6752)

21 aprel 2023-cü il.
Qiyməti 60 qəpik


## Dövlət-din münasibətlərində uğurlu model



2

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə əsaslı təmir və rekonstruksiyadan sonra "Cümə" məscidinin açılışı olub

# Birlik, xoş niyyətlər və xeyirxah əməllər rəmzi -

# Ramazan bayramı



3

## Uşaq intiharlarında günah kimdədir?



15

## "Ermənilər Azərbaycan bayrağı altında yaşamaq istəmirlərsə, ..."



6

## Ermənistan iki daş arasında



7




16

## Bakıda ilk elektrik mühərrikli avtobus: Üstünlükləri nədir?

## Sürücülük vəsiqəsini necə aldım?




13

# Dövlət-din münasibətlərində uğurlu model

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə əsaslı təmir və rekonstruksiyadan sonra "Cümə" məscidinin açılışı olub



Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlət-din münasibətlərində yeni bir mərhələ başladı. Dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. Uzun illər ibadət ocaqlarının, dini icmaların fəaliyyətinə, dini ayinlərin icrasına, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu. Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpası və yenidən qurulmasına xüsusi önəm verib. Belə ki, Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə imzaladığı Sərəncama əsasən, dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi yenidən tikilərək 1998-ci ildə istifadəyə verildi. Beləliklə, davamlı olaraq bu istiqamətdə tədbirlər reallaşdı.1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığını təmin edən, dövlət-din münasibətlərini tənzimləyən müddəalar daxil edildi. Dövlət quruculuğunun dünyəvi mahiyyət daşıması, dinin dövlətdən ayrı olması, bütün dini etiqadların qanun qarşısında bərabər sayılması, dövlət təhsil sisteminin dünyəvi xarakter daşıması, insan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd dinlərin yayılmasının və təbliğinin qadağan olması barədə müddəalar həmin sənəddə əksini tapdı.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dini məbədlərin bərpası və təmiri, eləcə də yenidən tikilməsi Prezident İlham Əliyev tərəfindən daha genişmiqyaslı şəkildə davam etdirildi. Əlbəttə ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə verdiyi töhfələr də əhəmiyyət kəsb edir. Təzəpir məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Gəncə İmamzadə kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilib. Xüsusi olaraq vurğulayaq ki, paytaxtımızda Heydər Məscidi kimi Cənubi Qafqazın ən böyük və müasir məscidi tikilib. Heydər Əliyev Fondu tərəfindən ”Tolerantlığın ünvanı - Azərbaycan layihəsi çərçivəsində ölkənin müxtəlif yerlərində çoxsaylı məscid və ibadət evləri bərpa edilib. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Azərbaycan əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil etməsinə baxmayaraq ölkə Konstitusiyasında bütün dini etiqad və təlimlərin qanun qarşısında bərabər olduğu təsbit olunmuşdur. Qanunvericiliyə əsasən ölkədə hər hansı bir dinin digər dindən üstün olması barədə təbliğatın aparılması qadağandır.Dözümlülük, tolerantlıq məkanı olan Azərbaycanda bu istiqamətdə reallaşan layihələr dünya dövlətlərinin diqqətindən kənarda qalmır. Bu gün ölkəmizdə bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır.













Görülən işlərin davamı olaraq aprelin 20-də Bakının Nərimanov rayonunda dövlətimizin başçısının təşəbbüsü ilə aparılan əsaslı təmirdən və rekonstruksiyadan sonra ”Cümə” məscidinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın müqəddəs Ramazan bayramı ərəfəsində ”Cümə” məscidinin açılışında iştirak etmələri həm də rəmzi məna kəsb edir. Vurgulamaq yerinə düşər ki, ”Cümə” məscidi 1998-ci ildən fəaliyyətə başlayıb. İllər ötdükcə bina tədricən qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə bu məsciddə əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. İşlər yüksək səviyyədə həyata keçirilib və bu ilin aprel ayında başa çatdırılıb. Qəzalı vəziyyətdə olan iki minarə aparılan işlər çərçivəsində sökülərək yenidən tikilib, məscid binasında bərpa-gücləndirmə işləri yerinə yetirilib, dəstəmazxana binası inşa olunub, zəruri infrastruktur yaradılıb.Eyni vaxtda 600-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir.

Dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Bu istiqamətdə görülən işlərə Heydər Əliyev Fondu da sanballı töhfələr verib. Nərimanov rayonundakı ”Cümə” məscidində aparılan əsaslı təmir və yenidənqurma işləri də ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir. Göründüyü kimi, multikultural ənənələri, tolerant mühiti, İslam dünyası daxilində həmrəyliyin möhkəmlənməsi istiqamətində atdığı tarixi addımları qlobal miqyasda maraqla qarşılanan Azərbaycanda müxtəlif dinlərin, o cümlədən İslam dinin abidələrinin qorunmasına xüsusi diqqətlə yanaşılır. Son dövrlərdə yeni məscidlərin tikilməsi və ya əsaslı təmiri də bu yanaşmanın təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

### Rəsmi xronika

Prezident İlham Əliyev Neftçala rayonunun Xanməmmədli-Qaçaqkənd-Qırmızıkənd- Xol Qarabucaq-Xəzər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Salyan rayonunun Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistralını Şorsulu, Boranıkənd, Seyidlər, Dayıkənd, Sarvan, Bəydili, Qızılağac və Alçalı kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları”nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Birlik, xoş niyyətlər və xeyirxah əməllər rəmzi - Ramazan bayramı



"Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bildirib. Şəfqət və mərhəmət dolu, on bir ayın sultanı Ramazan ayı gözəl niyyətləri və xeyirxah əməllər naminə birliyə çağırır. Bu ay İslam dünyasında ən müqəddəs ay hesab olunur. Oruc tutmaqla insanlar iradə qüvvələrini, dözümlüyünü, təmiz olduqlarını da göstərə bilirlər. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, orucluğun sınaqlarından alnıaçıq çıxaraq yüksək əhvali-ruhiyyə ilə bayramı qeyd edirlər. Ramazan ayında oruc tutulması müsəlmanlara hicrətin ikinci (622-ci il) ili təyin edilmişdir. Ramazan ayı insanlara Allahı sevmək prinsiplərini öyrədir, onlara öz iradə qüvvələrini, dözümlüyünü yoxlamaq imkanı verir, onları gözüaçıq, təmiz vicdanlı olmağa yönəldir və oruc tutmaqla ifadə olunur. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.

Azərbaycan müstəqillik qazandıqdan sonra dövlətimizdə Azərbaycan xalqının milli və dini mərasimləri, bayramları hər il dövlət səviyyəsində qeyd olunur. Ramazan ayı insanlara doğru yol göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Oruc tutmaqla inanclı insanlar mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşayırlar. İslamda ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilən Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır ki, Azərbaycan xalqı da bu ay ərizində əmin-amanlıq, qardaşlıq kimi dəyərləri nümayiş etdirmiş oldular. Mənəviyyat və əxlaqın zənginləşməsində oruc ibadəti insanın daxili saflığına, pis vərdişlərdən uzaq durmasına, Allah yolunda xeyirxah işlər görməsinə, fiziki və mənəvi cəhətdən sağlam olmasına səbəb olur. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində iftar süfrələri açıldı, ehtiyacı olanlara, kimsəsiz insanlara, ahıl və qocalara imkan daxilində köməklik göstərildi.

Ramazan bayramının məqsədlərindən biri də müsəlmanların toplanması və görüşməsidir. Müsəlmanlar bayramda görüşür, bir yerdə namaz qılırlar. Bayramın başqa məqsədlərindən də, müsəlmanların bir-birini ziyarət etməsi, qohum-əqrabalarla görüşməsi, əgər arada inciklik varsa barışması üçündür.

Əlbəttə ki, gözəl əməl və gözəl niyyət insanı ülviləşdirir, onu ucaldır. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanmış oldular. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynayıb. Müxtəlif dini mənsubiyyətə malik insanların cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss etməsi də Azərbaycanda tolerantlıq mühitinin əsas göstəricisidir. Dövlət başçısı mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir. Bu gün ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Ölkəmizdə dövlətin dəstəyi ilə sinaqoqlar, məscidlər, kilsələr tikilib, bərpa olunub və bu, davam etməkdədir. Bu gün Azərbaycanda bütün dinlərin nümayəndələri mehribanlıq şəraitində yaşayır və hüquqları tam təmin edilir, müqəddəs hesab olunan milli-dini bayramların keçirilməsinə yüksək şərait yaradılıb.





Hikmətlər xəzinəsi "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan bayramı da ölkəmizdə böyük sevinclə qeyd edilir. Xalqımız artıq üçüncü ildir ki, Ramazan ayına qalib xalq, Vətən və şəhadət eşqi sayəsində 30 illik işğala son qoymuş millət kimi qədəm qoyur. Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Dövlət başçısının təbrikində qeyd olunduğu kimi, İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur.Qeyd edək ki, oruc ibadətinzərbaycan xalqına təbrikin mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir.Allah oruc və namazlarımızı qəbul etsin! "Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı Ramazan ayı başa çatır. Bu mübarək bayram münasibətilə bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.Allah orucunuzu, dua və niyyətlərinizi qəbul etsin", - deyə Prezident təbrikində qeyd edib. Orucun son günü fitrə zəkatı cıxarılır. Şəriət qaydalarına görə, ən çox istifadə edilən ərzaq məhsulunun dəyəri ilə hesablanır. Ailədə adambaşına bu məhsullardan 3 kiloqram olmaqla fitrə zəkatı verilə bilər. Lakin Qafqaz Müsəlmanları İdarəsi tərəfindən fitrənin pul şəklində çıxarılması tövsiyə olunu Bu il bu zəkatın ailənin hər üzvü üçün orta hesabla 10-15 manat verilməsi məqsədəuyğundur. Fitrə zəkatını müsəlman olan hər kəs çıxarmalıdır. Oruc tutanlar da, tutmayanlar da. İlk növbədə ətrafda olan imkansızlara fitrə zəkatı verməli, sonra başqalarına.

Ramazan bayramınız mübarək!

***Nəzakət ƏLƏDDİNQIZI***

---

# Perulu jurnalist Ermənistanın Azərbaycana qarşı təxribatlarından yazıb

**Peru Jurnalistləri Federasiyasının rəsmi portalında qurumun vitse-prezidenti, tanınmış perulu jurnalist Rikardo Sançesin "Yalnız sərhədləri delimitasiya etməklə Ermənistan və Azərbaycan sülh içində yaşaya bilər" sərlövhəli məqaləsi dərc edilib.**



Federación de Periodistas del Perú
Fundada el 18 de julio de 1950

INICIO FPP POLÍTICA REGIONALES ACTUALIDAD ECONOMÍA INTERNACIONAL DEPORTES
COLUMNA DE OPINIÓN ENTRETENIMIENTO ARTE Y CULTURA CIENCIA OTROS CONTÁCTENOS

Columna de opinión Destacados Internacional

Solo delimitando las fronteras podrán Armenia y Azerbaiyán vivir en paz

19 Abril, 2023

Bakú y al fondo el mar Caspio

Ricardo Sánchez Serra

La distracción ruso ucraniana está haciendo que algunos países se envalentonen con sus vecinos por odios ancestrales o desquitarse por guerras perdidas, creyendo que su accionar belicoso va a pasar desapercibido en el escenario internacional.

Este es el caso de Armenia, que continuamente realiza provocaciones contra Azerbaiyán, sin que nadie lo siente a cumplir el alto el fuego, ni delimitar definitivamente las fronteras para que por fin haya paz en el Cáucaso. En los acuerdos de noviembre del 2020, también se estipulaba la construcción de un corredor (Zangezur) que permita comunicar Azerbaiyán con su región de Najicheván, separada por territorio armenio.

Entradas recientes

Solo delimitando las fronteras podrán Armenia y Azerbaiyán vivir en paz

Turismo: llegada de cruceros al puerto del Callao alcanza niveles prepandemia

"Brasil podría ser la puerta de entrada de Rusia a América Latina"

Emprendimiento: cinco medidas para potenciar tu empresa con marketing ads

Recorte de sueldos es un acto de corrupción

Membresía de prensa



AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi cinayət əməlləri və vandalizminə geniş yer verilərək, Ermənistanın bu gün də Azərbaycana qarşı hərbi təxribatlar törətməkdə davam etdiyi və bununla davamlı sülhə nail olmaq üçün iki ölkə arasında sərhədlərin delimitasiyasının aparılmasına səy göstərmədiyi qeyd olunur.

Məqalədə xüsusilə, bir neçə gün öncə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın sərhəd postlarına hücumu, silahsız Azərbaycan əsgərinə qarşı erməni vəhşiliyini əks etdirən videoların yayılması və Ağır Atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı Azərbaycan bayrağının yandırılması kəskin şəkildə pislənilir.

Həmçinin, Ermənistanın beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan ərazilərinin 30 ilə yaxın müddətdə işğal altında saxlaması nəticəsində 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyi, həmin ərazilərin tamamilə dağıdıldığı və Azərbaycanın maddi-mədəni irsinin vandalizmə məruz qaldığı qeyd olunur. Bu xüsusda müəllif 2021-ci ildə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri zamanı bütün bu vəhşiliklərin canlı şahidi olduğunu bildirir.

Məqalədə həmçinin, erməni işğalçıları tərəfindən basdırılmış yüz minlərlə minaya rəğmən hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağda genişmiqyaslı yenidənqurma və bərpa işlərinin görüldüyü vurğulanır, ölkə başçısının sözlərinə istinad edilərək, Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlərin azərbaycanlıların - bu torpaqların sahiblərinin öz doğma dədə-baba torpaqlarına qayıtdığını göstərdiyi qeyd olunur.

Sonda Ermənistan bir daha atəşkəsə və beynəlxalq hüquqa əməl etməyə, yaxın müddətdə sərhədlərin delimitasiyasını həyata keçirməyə çağırılır.

# Heydər Əliyev-100

# Xalqa həsr edilən LİDER ömrü

## Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət xalqın və dövlətin maraqlarına əsaslanır



Hazırkı məqamda Azərbaycanın mövcudluğu, beynəlxalq aləmdə nüfuzlu dövlət olaraq tanınması və qəbul edilməsi Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətinin bəhrəsidir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bugünkü güclü və qüdrətli Azərbaycan çətin, ağır dövrlər keçib. Yəni, Dahi Öndərimiz Heydər Əliyev böyük zəhmət, əmək sərf etməklə Azərbaycanımızı o dövrün xaos və anarxiya girdabından, iqtisadi tənəzzülündən xilas edərək xalqın istək və arzularına uyğun olaraq ölkəmizi sivil, demokratik, inkişaf edən dövlətə çevirdi. Əgər o dövrdə Dahi Öndərimiz Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlməsəydi, bugünkü firavan, güclü dövlət də olmazdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda çıxışı zamanı bildirdi ki, bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi: "Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı Ona müraciət etmişdir. 1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin Sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya Azərbaycan təcavüzkar dövlətdir və Azərbaycan Ermənistana qarşı təcavüz edir. Halbuki bizim torpaqlarımız işğal altına düşürdü".

Tarixi faktlara istinad etsək, bəlli olar ki, 1991-1993-cü illərdə Azərbaycanın üzləşdiyi ağır problemlər, siyasi, iqtisadi və sosial böhranlar, məhz liderin olmaması səbəbindən baş vermişdir. O dövrdə müstəqillik yollarında ilk addımlarını atan Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Müxtəlif xarici qüvvələrin dəstəyi ilə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkənin müstəqilliyini məhv olmaqdan, xalqı üzləşdiyi bəlalardan xilas etmək üçün düşünülmüş tədbirlər görmək iqtidarında deyildi. Siyasi baxımdan təcrübəsiz, dövlət idarəçiliyində heç bir təsəvvürə malik olmayan hakimiyyət ölkəni ağır bəlalara sürükləyirdi. Bu boşluqdan, idarəetmə pərakəndiliyindən istifadə edən məkrli erməni daşnaqları Azərbaycanımızın torpaqlarını işğal edirdilər. Mövcud ağrılı problemləri həll etmək əvəzinə AXC-Müsavat cütlüyü aralarında kreslo davası aparır, yeraltı yerüstü sərvətlərimizdən geninə-boluna talamaq üçün müxtəlif oyunlar qururdular. Bu da ölkədaxili xaos və anarxiyanı daha da dərinləşdirir, xalqın sabaha olan inamını daha da sarsıdırdı. Gəncədən başlayan iyun hadisələri vəziyyəti bir qədər də gərginləşdirdi. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi. Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütlələri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxarması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. Bu məqsədlə xalqımızın milli maraqlar ətrafında birləşmiş sağlam qüvvələri, YAP-ın qızıl fondu hesab edilən 91 ziyalı 1992-ci il oktyabrın 16-da Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". 24 oktyabr 1992-ci ildə ziyalılara cavab məktubunda Ümummilli Lider Heydər Əliyev: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər" deyərək yaradılması nəzərdə tutulan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılığını verir. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli Lider Heydər Əliyevin YAP-ın Sədr seçilməsi Azərbaycanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət idi. Ulu Öndərin siyasi iradəsi və peşəkarlığı müstəqilliyin qorunması və dönməzliyini təmin etdi. Ulu Öndərin müstəqilliklə bağlı qətiyyətli addımları bir çox təhdidlərin qarşısını almışdır. Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın tarixində yeni inkişaf mərhələsinin əsasını qoydu. 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkənin böhrandan çıxma prosesi başladı.

### Ulu Öndər Heydər Əliyevin yorulmaz siyasi fəaliyyəti Ona xalqın sevgi və ehtiramını qazandırmışdır

Yeni Azərbaycan Partiyasının 2021-ci il 5 mart tarixində keçirilmiş VII qurultayda YAP-ın Sədri, Azərbaycan Prezidenti İlham Əliyev çıxışında demişdir: "Ulu Öndər Heydər Əliyev ətrafında yaradılmış Yeni Azərbaycan Partiyanın fəaliyyəti ölkədə siyasi sabitliyin təmin olunmasına xidmət etmişdir. Ulu Öndər Heydər Əliyevin siyasi irsi inkişafın təməlində duran əsas ideoloji amildir. Heydər Əliyevin ətrafında yaradılmış partiya qısa müddət ərzində ümumxalq partiyasına çevrilmişdir. Ulu Öndərin öz xalqına olan sadiqliyi və ölkənin gələcəyi ilə bağlı olan mütərəqqi baxışları xalqı onun ətrafında birləşdirdi". Prezident İlham Əliyev çıxışında onu da bildirmişdir ki, Ulu Öndər Heydər Əliyevin yorulmaz siyasi fəaliyyəti Ona xalqın sevgi və ehtiramını qazandırmışdır: "Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Müsbət dəyişikliklərin əldə olunmasında Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı. Ulu Öndərin siyasi iradəsi və peşəkarlığı müstəqilliyin qorunması və dönməzliyini təmin etmişdir. Ulu Öndərin müstəqilliklə bağlı qətiyyətli addımları bir çox təhdidlərin qarşısını almışdır. Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın tarixində yeni inkişaf mərhələsinin əsasını qoydu. 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkənin böhrandan çıxma prosesi başladı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan həm də dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Bu baxımdan haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur. 15 iyundan Azərbaycanın inkşaf mərhələsinin başğanıcı oldu. Bu dövrdən xalqın soial-iqtisadi durumu yaxşılaşmağa, ictimai siyasi sabitlik təmin olunmağa başladı. Məhz bu baxımdan xalqımız öz liderinə öz təşəkkürünü bildirmək üçün Ona Ümummilli Lider adını verdi. Ümummilli Lider Heydər Əliyev iqtisadi inkişafın dönməzliyini təmin etmək üçün 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu.

Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı, digər sahələrdə də mühüm addımlar atdı, qərarlar imzaladı. 1995-ci ilin noyabrında Dahi Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizin gələcəyinin müəyyənləşdirilməsində mühüm istiqamətlərdən oldu. 1998-ci il avqusun 6-da Ulu Öndər Heydər Əliyevin qərarı ilə Şərqdə ilk dəfə olaraq ölüm hökmünə qoyulan moritorim tamamilə ləğv edildi. Yüksək humanizmə söykənən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş və 2001-ci ilin 25 yanvarında Azərbaycan Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edildi. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan dövlətinin ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən, həmin ilin noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Bu günlərdə Dünya Azərbaycanlılarının 5-ci qurultayının erməni işğalından azad edilən, türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərində keçirilməsi Ulu Öndərimiz Heydər Əliyevin diaspor quruculuğunun, dünya azərbaycanlılarının birliyinin və bərabərliyinin təmin olunması istiqamətində əsasını qoyduğu siyasətinin nəticəsidir. Şuşa qurultayı bir daha Dahi Öndər Heydər Əliyevin ideyalarının sarsılmaz olduğunu göstərdi və nə qədər Azəbaycan xalqı və dövləti var, ideyalarının da yaşayacağını ortaya qoydu.

### Bu gün Azərbaycan bütün sahələrdə inkişaf edir

Yuxarıda qeyd etdiyim kimi, bu gün Azrbaycan bütün sahələrdə inkişaf edir. Çünki Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət xalqın və dövlətin maraqlarına əsaslanır. Ona görə ki, xalq öz Liderinin tövsiyə və məsləhətlərinə, ideyalarına əməl edir. Həm də ona görə ki, Dahi Öndərimizin müdrik siyasətini ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirir. Hələ 2003-cü il prezident seçkiləri ərəfəsində Ulu Öndərimiz Heydər Əliyev demişdir: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Son 19 ildə Azərbaycanın daxili və xarici siyasətdə qazandığı uğurlar bir daha sübut etdi ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursu və Azərbaycan dövlətçiliyi etibarlı əllərdədir. 2018-ci ilin 11 aprel seçkilərindən sonra Azərbaycan daha da güclənib, zənginləşib, hərtərəfli inkişaf yolunda yeni uğurlara imza atıb. 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın azad edilməsi Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti nəticəsində əldə olunub. 44 gün davam edən müharibədə Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Parlaq Qələbəsi ilə başa çatdı. Təbii ki, uğurlarımız və qələbələrimiz hələ qabaqdadır. Yaxın vaxtlarda işğaldan azad edilən ərazilərimizə insanlarımız köçürüləcək və o yerlərə yeni nəfəs, yeni həyat qayıdacaq.

***İ.ƏLİYEV***

# Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürü

**İLHAM ƏLİYEV: "Bu, bir daha onu sübut etdi ki, Azərbaycan olmayan yerdə Türkiyə daim bizi təmsil edir və haqq işimizi dəstəkləyir"**

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Ağır atletika üzrə Avropa çempionu Cansu Bektaş və Ağır atletika üzrə Avropa çempionatının gümüş medal sahibi Qamze Altunu təbrik ediblər. Təbrikdə deyilir: "Əziz Cansu və Qamze, İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında qızıl və gümüş medallar qazanmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Sizin yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək dünya miqyasında Türkiyə bayrağını dalğalandırmağınız, İstiqlal Marşını səsləndirməyiniz bütün Azərbaycan xalqını sevindirdi. Qələbələrinizi Azərbaycana həsr etdiyinizə görə Sizə xüsusi təşəkkür edirik. Bu, bir daha onu sübut etdi ki, Azərbaycan olmayan yerdə Türkiyə daim bizi təmsil edir və haqq işimizi dəstəkləyir. Bu, sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürüdür. Biz Sizinlə fəxr edir, bundan sonra da yeni-yeni qələbələr diləyirik".

### TÜRKİYƏ XALQINA, HƏM DƏ BÜTÜN DÜNYAYA BİR MESAJ: "BİZ BİR YERDƏYİK. BİZİM BİRLİYİMİZ SARSILMAZDIR VƏ ƏBƏDİDİR"

Bəli, Azərbaycan-Türkiyə çətin gündə də, şad gündə də bir-birinin yanındadır. Bu, ən çətin anların sınağından çıxan, dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Bu birlik, qardaşlıq bütün sahələrdə olub: həm siyasi, həm iqtisadi, həm də hərbi sahədə. Prezidenti İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibəsində Azərbaycanın ən çətin günündə Türkiyə dövlətinin misilsiz dəstəyinin olduğunu deyərək bildirmişdir ki, bu iş bitsin, ərazi bütövlüyü bərpa edilsin qardaş dövlətimiz arasında yeni dövr başlayacaq: "Qoy, bunu həll edək, bu iş bitsin, ərazi bütövlüyümüz bərpa edilsin, ondan sonra Azərbaycanın yeni dövrü başlanacaq, bölgənin yeni dövrü başlanacaq, güclər nisbəti dəyişəcək və hesab edirəm ki, Türkiyə və Azərbaycanın gücü daha da möhkəm olacaq".

"Bu gün Türkiyə bölgədə və yeni coğrafiyada çox önəmli sabitləşdirici rol oynayır. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu",- deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, çoxları bunu anlamırlar: "Bəziləri bəlkə bunu anlamırlar. Əgər o sözlər olmasaydı, əgər mənim qardaşım deməsəydi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, bəlkə də burada vəziyyət qarışardı. Bəlkə də başqa kimsə burada, necə deyərlər, bulanıq suda balıq tutmağa çalışacaqdı. Ona görə bundan sonra bu bölgədə biz yeni bir strateji mənzərə, strateji baxış yaratmalıyıq. Artıq bu barədə düşünməyə başlayırıq, ancaq hadisələri qabaqlamaq istəmirik". Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisinin (TBMM) iclasında Azərbaycan torpaqlarına Ermənistanın təcavüzü barədə danışarkən bildirmişdir ki, ermənilərin qədim Azərbaycan torpağı Qarabağın işğalına qarşı kor, kar, lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlülükdür və Türkiyə həmişə Azərbaycanın yanındadır: "Bunu burada bir daha bildirmək istərdim. Türkiyə bu günə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın yanında olacaq. TBMM olaraq Azərbaycanın yanında olduğumuz bir daha bildirildi. Ermənistan işğal etdiyi ərazilərdən çıxarılmalıdır".

### İLHAM ƏLİYEV- RƏCƏB TAYYİB ƏRDOĞAN - İKİ LİDERİN UCA ŞƏXSİYYƏTİNƏ, MƏNLİYİNƏ, MƏNƏVİYYATINA, DƏYƏRLƏRƏ BAĞLILIĞINA YARAŞAN DA ELƏ MƏHZ BUDUR!

Çünki tariximizin ən önəmli anlarında Azərbaycan və Türkiyə bir yerdə olub. 2018-ci ildə Bakının erməni işğalından azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxdılar. Bunun təkrarı 2020-ci 10 dekabr tarixində Zəfər paradında yaşandı. Paradda qardaş Türkiyə Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçuların iştirakı Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının daha bir əyani nümunəsi oldu. Bütün dünya bir daha gördü ki, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə Mustafa Kamal Atatürkün ifadə etdiyi kimi, sevincli günlərdə də, kədərli günlərdə də daim bir-birinin yanındadır. 2021-ci il 15 İyun - Milli Qurtuluş Günündə Şuşada Azərbaycan-Türkiyə müttəfiqliyini təsdiqləyən sənədin imzalanması mərasimi keçirildi. Dünyaya Şuşa Bəyannaməsi kimi səs salan bu sənəd iki qardaş ölkənin münasibətlərinin gələcək inkişafını özündə ehtiva edir. Hər zaman Azərbaycanın, Prezident İlham Əliyevin yanında olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci ildə Qarabağın dünyaya açılan hava qapısı kimi dəyərləndirilən Füzuli Beynəlxalq Hava Limanının, 2022-ci ildə isə Şərqi Zəngəzurun dünyaya açılan hava qapısı olan Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimlərində iştirak etdi. Rəcəb Tayyib Ərdoğan Qarabağımıza ilk səfər edən, həmçinin ilk xarici uçuşu həyata keçirən dövlət başçısıdır. Füzuli Beynəlxalq Hava Limanının açılışından sonra Zəngilana səfər edən iki dost, qardaş ölkə liderləri "Dost Aqropark"ın təməlini qoydular. "Dost Aqropark" Azərbaycan və Türkiyənin birgə həyata keçirəcəyi investisiya layihəsidir. O da məlumdur ki, Füzuli Beynəlxalq Hava Limanı da Azərbaycan və Türkiyə mütəxəssislərinin birgə səyləri nəticəsində tikilib istifadəyə verildi. Türkiyədə dənizi üzərində həyata keçirilən böyük layihə - Rize-Artvin Hava Limanının iki qardaş ölkənin rəhbərləri - Prezident Rəcəb Tayyib Ərdoğan və Prezident İlham Əliyevin iştirakı ilə açılışı Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu bir daha dünya birliyinə nümayiş etdirdi. Prezident İlham Əliyevin yeni istifadəyə verilmiş hava limanının açılış mərasiminə dəvət edilməsi təsadüfi deyildi. Bu, iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasından xəbər verməklə yanaşı, həm də Türkiyə-Azərbaycan dostluq və qardaşlığının bir-birinə qırılmaz tellərlə bağlı olmasının təsdiqidir. Eyni zamanda, ötən ilin mayında, həmçinin "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı keçirildi. Dövlət başçımız İlham Əliyev Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının növbəti təzahürü olan "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında bir daha bildirdi ki, bu, bizim birliyimizin növbəti nümayişidir, onun təzahürüdür. "TEKNOFEST" elm, inkişaf, bilik, texnologiya bayramıdır. Belə bir əminlik də ifadə edildi ki, "TEKNOFEST"də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaqlar. Bir neçə gün bərabər olan Türkiyə və Azərbaycan gəncləri artıq bir ailə kimi bir-birinə yaxın oldu, bir-birini tanıdı və əminəm ki, gələcəkdə də daim bir yerdə olacaqlar.



### BİR DƏ TƏVAZÖKARLIQDAN KƏNAR OLSA DA, HESAB EDİRƏM Kİ, BU GÜN DAHA İKİ NÜMUNƏ VAR - O DA MƏNİM QARDAŞIMLA MƏN

Bəli, Azərbaycan və Türkiyənin bir-birlərinə qardaş dəstəyi bugünümüzün reallıqlarında özünün aydın ifadəsini tapır. Dövlət o zaman güclü, qüdrətli olur ki, onun sabahını, gələcəyini düşünən, xalqını daim irəli aparan lideri vardır. "TEXNOFEST Azərbaycan" festivalında dövlət başçısı İlham Əliyevin "Bir də təvazökarlıqdan kənar olsa da, hesab edirəm ki, bu gün daha iki nümunə var - o da mənim qardaşımla mən. Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik. Türkiyənin uğurlu inkişafı, ilk növbədə, Prezident Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Mən də öz fəaliyyətimdə həmişə çalışmışam ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edim, Azərbaycanın müstəqil siyasətini təmin edim. Bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır" fikirləri də deyilənlərin təsdiqidir.

Belə ki, bu il fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələ bir daha dünyanın diqqətini bu birliyə yönəltdi. Azərbaycan hökuməti və xalqı zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər oldu. Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın tviter hesabında etdiyi paylaşımda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təşəkkürü həm də qardaş xalqın minnətdarlıq hissinin ifadəsidir: "Dərdiniz dərdimizdir" deyən azərbaycanlı qardaşlarımızı unutmayacağıq. Axtarış-xilasetmə qrupları başda olmaqla, humanitar yardım təyyarələri ilə ilk gündən bizimlə olan Azərbaycana və dəyərli dostum Mehriban Əliyevaya dəstəyə görə təşəkkürümü bildirirəm".

### AZƏRBAYCAN-TÜRKİYƏ QARDAŞLIĞININ NÖVBƏTİ NÜMUNƏSİ - "TOGG"UN İLK SAHİBLƏRİ TÜRKİYƏ VƏ AZƏRBAYCAN PREZİDENTLƏRİDİR

Bəli, bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər. Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün türk dünyası üçün önəmli şərtdir. Məhz aprelin 4-də dünya növbəti dəfə Azərbaycan-Türkiyə qardaşlığının nümunəsini gördü. Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edildi. "Togg"un ilk sahibinin Türkiyə və Azərbaycan prezidentlərinin olması Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin daha bir parlaq nümunəsidir. Və bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın türkiyəli atletləri təbrik etmələri sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürüdür.

Bəli, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Sındıra da bilmədi. Bunu isə işğalçı Ermənistan niyə də qəbul etmir? Çünki bu birlik, həmrəylik Qələbə Zəfərində bir daha özünü göstərdi, göstərdi ki, Azərbaycan-Türkiyə çətin gündə də, şad gündə də bir-birinin yanındadır. Və bu gün Türkiyə və Azərbaycan liderlərinin mütəmadi görüşləri iki dövlətin sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

***Rəfiqə Hüseynova***

---

# Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib



Aprelin 20-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib.. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasın gündəliyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli iqtisadiyyatımızın mövcud müsbət nəticələrini, makroiqtisadi vəziyyəti, cari ilin birinci rübü üzrə dövlət büdcəsi gəlirlərinin proqnozdan artıq icra göstəricilərini nəzərə alaraq 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılması (dürüstləşmə) ilə bağlı Hökumətə verdiyi tapşırıqlar, o cümlədən, Ortamüddətli Xərclər Çərçivəsi və 2024-cü il və növbəti üç il üçün icmal və dövlət büdcələrinin proqnozları, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası" üçün maliyyə təminatı və digər məsələlər geniş müzakirə olunub.

İclasda maliyyə naziri Samir Şərifovun məruzəsi və Şura üzvlərinin rəy və təklifləri dinlənilib. İclasın yekununda 2023-cü ilin dövlət büdcəsinə əlavə düzəlişlər hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

**Otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və Vətənini canından artıq sevən ən böyük azərbaycanlı, şərəfli adı bizim üçün həmişə əziz və unudulmaz olan Heydər Əliyevlə bağlı olub. Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsətli dirçəlişi ilə əlamətdardır.**

# Azərbaycan-İsrail diplomatik münasibətləri yeni mərhələdə

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan-İsrail münasibətlərini yüksək qiymətləndiririk"

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 19-da İsrail Dövlətinin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Koheni qəbul edərkən ölkələrimiz arasında yaxşı siyasi əlaqələrin mövcud olduğunu və Azərbaycanın İsraildə səfirliyinin açılmasını əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi qiymətləndirib və bu əlaqələrin dostluq, qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslandığını vurğulayıb.

Dövlət başçısı əməkdaşlığımızın gündəliyinin genişləndiyini deyərək, Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın fəaliyyətini xüsusi qeyd edib, bunun əlaqələrin şaxələnməsi işinə töhfə verə biləcəyinə ümidvarlığını bildirib.



### SƏFİRLİYİMİZİN AÇILMASI BU MÜNASİBƏTLƏRİN İNKİŞAFINA TÖHFƏ VERƏCƏK

Bəli, Azərbaycanın xarici siyasətində dünya ölkələri ilə qarşılıqlı etimada əsaslanan bərabəhüquqlu münasibətlərin qurulması prioritetdir. Bu siyasət nəticəsində ölkəmizin xarici əlaqələri, dostluq münasibətləri daim güclənir. Azərbaycana yaxın dost və tərəfdaş ölkələrindən biri də İsrail dövlətidir. Azərbaycan və İsrail xalqları arasında dostluq əlaqələrinin qədim tarixi var. Bu xalqlar həmişə bir-birinin dilinə, dininə, mədəniyyətinə dərin hörmətlə, ehtiramla yanaşıblar.

Ölkələrimiz arasında siyasi münasibətlər də yüksək səviyyədədir. Belə ki, İsrail Dövləti 1992-ci il aprelin 7-də Azərbaycanın müstəqilliyini tanıyıb. Bu illər ərzində Azərbaycan və İsrail dövlətlərinin siyasi, iqtisadi, mədəni və hərbi sahələrdə sıx əlaqələri yaranıb. 1993-cü ildə İsrailin Azərbaycanda səfirliyi açılıb. Bu gün qarşılıqlı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Qeyd etmək lazımdır ki, Azərbaycan-İsrail əlaqələri xalqlarımız arasında tarixən mövcud olmuş sıx dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. Məmnunluqla qeyd olunmalıdır ki, ötən 30 ildə siyasi, iqtisadi, hərbi-texniki, səhiyyə, mədəni və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf edib, dostluq əlaqələrimiz daha da möhkəmlənib. Azərbaycanda əsrlərdən bəri mehribanlıq, əmin-amanlıq və harmoniya şəraitində yaşayan yəhudi icması, həm İsraildə, həm də dünyanın digər ölkələrində məskunlaşmış yəhudi əsilli həmvətənlərimiz dövlətlərarası münasibətlərimizin möhkəmlənməsinə öz töhfələrini verməkdədirlər.

### AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFI AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PARLAQ SİYASƏTİNİN NƏTİCƏSİDİR

Azərbaycan Prezidenti hər zaman öz humanistliyi, nəcibliyi, yüksək dünya görüşü və dərin intellekti, parlaq zəkası və güclü Diplomatik bacarığı ilə bütün dünyada özünəməxsus yer tutmuş bir Prezidentdir və bütün dünyada yüksək nüfuza və dərin hörmətə malik, sayılıb seçilən dövlət başçılarındandır. Azərbaycanın Avropa və Qərb ölkələri ilə ortaq enerji layihələrinin reallaşması və Azərbaycan iqtisadiyyatının yüksələn xəttlə, sürətlə inkişaf etməsi Prezident İlham Əliyevin zəngin Diplomatiyasının, parlaq daxili və xarici siyasətinin nəticəsidir. Prezident İlham Əliyev güclü Diplomat, praqmatik siyasətçi olmaqla bərabər güclü iqtisadçıdır. Bölgənin bütün nəhəng iqtisadi və enerji layihələrinin müəllifi və təşəbbüskarı məhz cənab İlham Əliyevdir. Qafqazda və Türk dünyasında heçbir layihə Azərbaycansız və İlham Əliyevsiz reallaşa və heçbir addım İlham Əliyevsiz atıla bilməz. Cənab İlham Əliyev nəinki öz ölkəsinin və xalqının, hətta bütün bölgənin təhlükəsizliyi və əmin-amanlığı üçün əzmlə çalışmaqda, bölgədə və bütün dünyada sülhə əmin-amanlığa öz töhvəsini verməkdədir. Hazırda Prezident İlham Əliyevin apardığı uğurlu siyasət Azərbaycan iqtisadiyyatını daha da dayanıqlı edir və sürətli inkişafı təmin etməklə, Azərbaycanın gələcəyi üçün daha da yüksək uğurlar və böyük nailiyyətlər yaradır.

Azərbaycan Prezidentinin parlaq siyasəti hərbi sahədə də öz töhvəsini verib. Azərbaycan ordusunun 44 günlük müharibədə işğalçı Ermənistan üzərində qələbə qazanmasında Prezident İlham Əliyevin ordu quruculuğu siyasəti əhəmiyyət kəsb etdi. Və məhz bunun nəticəsidir ki, 2020-ci ilin 44 günlük ikinci Qarabağ müharibəsində Azərbaycan ordusu Ermənistan ordusu üzərində analoqu olmayan qələbə qazanmışdır.

Hazırda məhz Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanda güclü xalq-iqtidar və xalq-dövlət birliyi mövcuddur. Prezident İlham Əliyevə olan ümumxalq sevgisi və rəğbəti bütün Azərbaycan xalqını Azərbaycan dövlətinin və iqtidarının ətrafında sıx birləşdirmişdir. Təkcə Azərbaycan daxilində yox, Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda yaşayan Azərbaycanlıların və həmçinin Arazın Cənubundakı bütün Güney Azərbaycanlıların cəm halda İlham Əliyevə böyük sevgisi vardır. 2020-ci ilin 44 günlük Qarabağ müharibəsində bu, açıq-aşkar göründü. Hazırda dünyanın hər yerində prezident İlham Əliyevə böyük sayqı və ehtiram vardır. Bu, Prezident İlham Əliyevin müdrikliyi, hümanistliyi, yüksək insanpərvərliyi və öz siyasi xəttində ali və insani dəyərləri rəhbər tutmasıdır. Əsası dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulan tolerantlıq və multikultural siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdə və bu ali dəyərlər daha da inkişaf etdirilməkdədir. Azərbaycan daxilində yaşayan bütün etnik xalqlar və müxtəlif dini inanclar bir-biri ilə qardaşlıq və doğmalıq şəraitində yaşayır və günü gündə də qardaşlaşmaqda və doğmalaşmaqdadır. Məhz İlham Əliyevin tolerantlıq və multikultural siyasəti Azərbaycanı dünyada ən nümunəvi ölkələr sırasına yüksəltmişdir. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasəti və parlaq strategiyaları nəticəsində Azərbaycanın daha da güclənməsi və inkişaf etməsi nəticəsindədir.

Azərbaycanın İsraildə Səfirlik açması da Prezident İlham Əliyevin diplomatik addımıdır. Cənab İlham Əliyevin tolerant siyasəti, uğurlu strateji addımları nəticəsində Yəhudi xalqı ilə Azərbaycan xalqının hələ minillərə dayanan dostluğu və qardaşlığı, Azərbaycan və İsrail dövlətinin dostluğu daha da inkişaf edəcək və daha da möhkəmlənəcəkdir. Və bu gün fars şovinistləri nə istəyirlər, istəsinlər Azərbaycan istənilən dövlətlə əməkdaşlıqda müstəqildir və tərəfdaşlarını özü seçir. İran və Ermənistan da sivil qonşuluq münasibətləri çərçivəsində münasibət qurmağı öyrənsələr, onlarla da dostluq edə bilərik. Təəssüf ki, bu qonşularımız hələ özlərinin sivil dövlətini qura bilmirlər.

Necə ki, bir müddət öncə Kaliforniyada yayımlanan "Jewish Journal"da Qarabağ məsələsi və multikulturalizm mövzusunda məqalələr yazan Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev belə qeyd etmişdi: "Bizi Azərbaycandan ayırmaq mümkün deyil. Dünyanın harasında olsaq da, azərbaycanlıyıq... Biz yəhudilər əsrlər boyu Azərbaycanda yaşamışıq, yaşayırıq, övladlarımız, nəvələrimiz də yaşayacaqlar"...

Bir sözlə, Azərbaycan hər zaman bütün ölkələri, o cümlədən regional dövlətləri dinc əməkdaşlığa çağırır. Və Azərbaycan və İsrail dövlətlərinin rəhbərləri iki ölkənin daha da yaxınlaşmasını hədəfləyən qərarlar verərkən hər iki ölkənin cəmiyyətlərinin istəyinə əsaslanırlar. Çünki xalqlarımızın münasibəti maddi maraqlar üzərində yox, səmimi dostluq və qardaşlıq üzərində qurulub. Yəhudi xalqı tarixən olduğu kimi bundan sonra da Azərbaycan xalqının və dövlətinin yanında olacaq. Hər hansı bir kənar düşmən qüvvə xalqlarımızın bu dostluğunu və qardaşlığını poza bilməz və bu münasibətlər daha da yüksək olacaq. Dövlət başçımızın söylədiyi kimi: "Azərbaycan-İsrail münasibətlərini yüksək qiymətləndiririk".

***RƏFİQƏ KAMALQIZI***

# "Ermənilər Azərbaycan bayrağı altında yaşamaq istəmirlərsə, ..."

## DEPUTAT MÜNASİBƏT BİLDİRDİ

"Prezident cənab İlham Əliyev Salyana səfəri çərçivəsində AzTV-yə verdiyi geniş müsahibədə Ermənistanla sülh müqaviləsinin imzalanmasına toxunaraq Ermənistana və Qarabağda yaşayan ermənilərə ünvanlanmış vacib mesajlar səsləndirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib. Onun sözlərinə görə, belə ki, dövlət başçımız ordumuzun gücünün 44 günlük Vətən müharibəsində olduğundan qat-qat çox olduğunu bildirərək Ermənistanda yenidən baş qaldıran revanşist qüvvələrə cavab verməyə hər zaman hazır olduğumuzu bildirdi. Həm də ordunun gücləndirilməsinə əlavə vəsaitlər ayrılacağını qeyd edərək daha professionallaşdıracağını qeyd etdi: "Təbii ki, yenidən revanşizm xəyallarına dalanlar Azərbaycanın hərbi potensialını nəzərdən keçirməlidirlər. Ermənistanın hərbi birləşmələrinin Azərbaycan ordusu ilə qarşı-qarşıya gəlməyə heç vaxt nə gücü çatar, nə də cəsarəti".





Deputat sözlərinə belə davam edib: "Cənab Prezident Ermənistana sülh müqaviləsi imzalamaq üçün masanın üstünə qoyduğumuz 5 prinsip beynəlxalq normalara uyğun olduğunu bildirərək sülh müqaviləsi ancaq bu prinsiplərə əsaslanacağını bir daha bəyan etdi. Ölkə başçımız niyyətimizin Ermənistanla tezliklə sülh müqaviləsinin bağlanması və uzun sürən qarşıdurmaya son qoymağa hazır olduğumuzu bir daha bildirdi. Həm də Qarabağda yaşayan ermənilərin Azərbaycan bayrağı altına keçməkdən başqa yolun olmadığını bildirərək ölkə daxili məsələlərini heç bir tərəflə müzakirə etmək niyyətimiz olmadığını bir daha diqqətinə çatdırdı. Həm də separatçılara ünvanladığı mesajda əgər Azərbaycan bayrağı altında yaşamaq istəmirlər, özlərinə yeni bir yaşayış yerini tapmaqları da tövsiyə olundu. Əks halda, antiterror əməliyyatları aparılaraq Azərbaycan bayrağı altında yaşamaq istəyən erməniləri separatçıların girovluğundan azad olunması qaçılmaz olacaqdır.

Hesab edirəm ki, qarşı tərəf dövlət başçımızın mesajlarından nəticə çıxaracaq və regionda sabitliyin yaranmasına xidmət edəcək addımların atılmasına hazır olduğunu bildirəcəkdir. Çünki Ermənistanın başqa seçimi qalmayıb".

***Ayşən Vəli***

# Ermənistan iki daş arasında

**"İtin duası qəbul olunsaydı, göydən sümük yağardı". Bu, bir Atalar məsəlidir. Həqiqətən, hər kəsin duası müstəcəb olmur, hər insanın arzusu gerçəkləşmir, hər ermənin də istəyi həyata keçmir. Son vaxtlar tez-tez eşidirik, filan erməni ekspert bunu dedi, Ermənistanın spikeri bunu istədi, baş nazir bunu tələb etdi... Hər deyilənlərin də başına ip keçirməli olsaydıq vaxtımız boşa gedərdi. 44 günlük müharibədən sonra Ermənistan rəhbərliyində və eyni zamanda ermənilərdə sərsəmləmələr kifayət qədər çox oldu, bəzən keçirilən danışıqlarda erməni rəhbərlərinin hərdəmxəyallığı diqqəti daha çox cəlb edirdi. Bunu Azərbaycandan aldığı zərbədən sonra xarakterik hal kimi dəyərləndirənlər də oldu. Amma bu ölkədə son günlər baş verənlər heç bir çərçivəyə sığmır. Ermənistanda bundan sonra kiminlə danışıqlar aparılacağını müəyyənləşdirmək də çətinləşir.**



Hər iki ölkə qarşıdakı hadisələrə - sülh müqaviləsinin imzalanmasına hazırlıqla məşğuldur. Azərbaycan hələ ötən ilin əvvəlindən Ermənistana 5 baza prinsiplərinə söykənən sənəd təqdim edib və orada sülh müqaviləsinin beynəlxalq standartlara uyğun tərtib edildiyinə dair heç bir şübhə yoxdur. Ermənilərin bu sənədlə tanışlığından az qala il yarım keçir. Yalnız indi Paşinyan və onun komandası həmin sənədə reaksiya verməyə başlayıblar. Başları daşdan-daşa dəyəndən sonra anlayıblar ki, 29,8 min kvadrat kilometrlik ərazilərində yaşamağa qane olmaq şərtilə sülh müqaviləsinə imza ata və təhlükəsiz yaşaya bilərlər.

Amma Ermənistandakı maksimalist təbəqə iki ölkə arasında 30 ildən artıq davam



edən münaqişəni, müharibəni ən çoxuna nail olmadan dayandırmaq istəmirlər. Bunun üçün bütün vasitələri sınaqdan çıxarmaq niyyətlərini gizlətmirlər. Əllərinə düşən bütün imkanları dövrəyə buraxırlar. Necə deyərlər, bir tərəfdən sülh istəyir, digər tərəfdən müharibəyə hazırlaşırlar. Ermənistanın Soçi, Brüssel və Vaşinqton platformalarında sülh axtarmaqla yanaşı İrandan, Hindistandan müxtəlif növ silahlar əldə etməyə çalışması, bu ölkələrə sifarişlər göndərməsi, müqavilələr imzalaması diqqətdən yayınmamalıdır. Ermənistan Azərbaycanla dost demirik, heç mehriban qonşuluq da demirik, heç olmasa normal beynəlxalq prinsiplər çərçivəsində yaşamaq istəyində olduğunu büruzə verən simptomlara da malik deyil. Dumanda yolu azaraq Ermənistanərazisinə keçən iki əsgərimizlə bağlı qaldırdıqları hay-küy, isterik hərəkətlər bunu deməyə əsas verir ki, Azərbaycanın işi hələ çox olacaq. Xəbis, riyakarlıq kimi yaşam tərzini özünə yol seçən ermənilərin də işi asan olmayacaq.

Ermənistanın təhsil, mədəniyyət və idman nazirinin müavini Karen Giloyan bu səhər ermənilərə "xoş" xəbər verib. Ki, ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılması ilə bağlı insidentə görə Ermənistan cərimə olunmayıb. Onun sözlərinə görə, nə Avropa Ağır Atletika Federasiyasına, nə də Beynəlxalq Ağır Atletika Federasiyasına bu məsələ ilə bağlı məktub daxil olmayıb. Halbuki bununla bağlı Azərbaycan Ağır Atletika Federasiyası Avropa Ağır Atletika Federasiyasına və Beynəlxalq Ağır Atletika Federasiyasına rəsmi müraciət ünvanlayıb. Azərbaycan bayrağını yandıran dizay-



ner Aram Nikolyan saxlanılaraq İrəvanın Malatiya rayon polis şöbəsinə aparılıb. Sonra onun vəkili Aleksandr Koçubaev dizaynerin azadlığa buraxıldığını elan edib.

Ermənistandakı sorğu agentliklərindən birinin İrəvan küçələrində keçirdiyi sorğunun nəticələri həm maraqlı, həm də bu xalqın iç üzünü açmaq baxımından təəccüblüdür. Respondentlərin fikirləri ikiyə bölünüb, bəziləri Nikolyanı dəstəkləyib, bəziləri onun hərəkətini tənqid edib. Nikolyanın tərəfdarları olan yaşlı vətəndaş bildirib ki, "bu, erməni xalqını məhv edən xalqın bayrağıdır. Yaxşı elədilər ki, yandırdılar, mən özüm bu yaşda yandırardım, düzgün addım idi. Azərbaycanlılar insan deyillər". "İnsanlarımızı öldürdülər, bu qədər ermənini qırdılar, bütün bunlardan sonra bayrağı yandırmağın heç bir dəyəri yoxdur, çox sağolun", - başqa bir vətəndaş deyir. Bu addıma qarşı çıxan vətəndaşlar qeyd ediblər ki, bayraq yandırmaq heç nəyi dəyişməyəcək, əksinə Ermənistanın beynəlxalq nüfuzuna, reytinqinə mənfi təsir göstərəcək. "Bu, bizə yaraşmır, siyasət hər yerdə həyata keçirilə bilməz, bu, aşağı səviyyəli addımdır", - deyə respondent vurğulayıb. Bu addımı tənqid edənlər qeyd etdilər ki, biz dünya ictimaiyyətinə sabit inkişaf etmiş ölkə olduğumuzu göstərməliyik.

Bir tərəfdə yolu azaraq Ermənistan ərazisinə keçən əsgərlərimizə qarşı qeyri-insani hərəkətlər edilir, iki gün keçməmiş idman yarışları zamanı bayrağımız yandırılır, Azərbaycana qarşı nifrət körüklənir, bu gün isə Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazır olduğunu və sülh istədiyini deyir. "Ermənistan və Azərbaycan arasında sülh sazişi o zaman realdır ki, hər iki ölkə aydın şəkildə, qeyri-müəyyənlik və hiylə olmadan bir-birinin ərazi bütövlüyünü tanısın və bu gün və əbədi olaraq bir-birinə ərazi iddiaları irəli sürməməyi öhdəsinə götürsün", - Paşinyan bildirib. O, bu barədə Azərbaycan prezidenti ilə Praqa və Soçi görüşlərində razılaşdığını bəyan edib.

Belə görünür ki, həm İrəvandan, həm də Bakıdan rəsmi açıqlamalar var, amma qarşı tərəflər bir-birlərini razılaşmalara əməl etməməkdə ittiham edir. Paşinyan bir daha təsdiq etmək istəyib ki, Ermənistan öz ərazi bütövlüyünü tam şəkildə tanıyır və Ermənistan SSR ərazisini Ermənistan ərazisi kimi tanımaqla Azərbaycanın da eyni addımı atmasını gözləyir. Buna inanaqmı? Ermənistanın bir oyun qurmadığını necə müəyyən edə bilərik? Çünki, hərdəmxəyallar, başıpozuqlar, xəbis və riyakarlar ölkəsidir.



Paşinyan bildirib ki, Azərbaycanın danışıqlar zamanı Ermənistanın ərazi bütövlüyünü tanımaqdan imtina etməsi ilə bağlı iddiaları həqiqətə uyğun deyil və Ermənistan ərazi bütövlüyünün əsası kimi SSRİ-də hazırlanmış Ermənistan və Azərbaycan SSR ərazilərinin xəritələrinin müqaviləyə əlavə edilməsi təşəbbüsü ilə çıxış edib. Paşinyan həm də bunu Ermənistan və region üçün sülh formulu adlandırıb. Ermənistanın baş naziri vətəndaşlara qismən ağrılı olacaq kompromis həllərin mahiyyətini çatdırmaqda, yəni həqiqəti söyləməkdə çətinlik çəkdiyini də etiraf edib. Əlavə edib ki, beynəlxalq ictimaiyyət 29800 kv.km ərazinin tanındığını açıq şəkildə bəyan etdikdə Ermənistan və region üçün sülh gələcək. Ermənistan isə bəyan edəcək ki, onun heç bir ölkəyə ərazi iddiası yoxdur. Bunu baş nazir Nikol Paşinyan parlamentdə 2022-ci il üçün hökumət proqramının icrası ilə bağlı hesabatı təqdim edərkən bir daha bildirib.

Biz bu yazının bir az əvvəlində Ermənistan rəhbərliyinin və ermənilərin zehniyyət cəhətdən nə qədər geridə qaldıqlarını demişdik. Bir daha təkrar etməkdə fayda var deyə, bildirək ki, hələ il yarım bundan əvvəl, Azərbaycan tərəfi Ermənistana ünvanladığı 5 baza prinsipindən ibarət sülh müqaviləsində ermənilərin bu gün razılaşdığı məqamlar yazılmışdı. Azərbaycan qalib ölkə kimi Ermənistana regionda davamlı sülh, inkişaf olsun deyə əl uzadır. Başı əzilməli, yurdu-yuvası tar-mar edilməli, bizə qarşı etdikləri pisliklərə görə bədəl ödəməli olan ermənilər isə hələ də şərtlərlə razılaşmaq istəmirlər, üstəlik öz şərtlərini irəli sürmək kimi cəsarətlənirlər.

Paşinyan parlamentdə çıxışı zamanı bildirib ki, əgər bütün bunlar edilməsə, yəni Ermənistana təklif olunan şərtlər qəbul olunmasa, o zaman heç kim Ermənistanın inkişafına imkan verməyəcək, "biz inkişaf edirik, güclənirik" faktı ilə barışmayacaq, çünki bunun onlara qarşı yönəldiyini düşünəcəklər. Baş nazirin sözlərinə görə, belə şəraitdə digər ölkələrin gündəmində olan Ermənistan dövlətinin mövcudluğu şübhə altına düşəcək.

Ermənistan anlamalıdır ki, sülhə nail olmaq dörd qonşu ölkə ilə normal münasibətlərin olması deməkdir. Gürcüstan və İran məsələsində söhbət əməkdaşlığın daha da dərinləşdirilməsindən gedir, daha çox Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılması gərəkliyini İrəvandakılar anlamaq zorundadırlar. Paşinyan bu tapşırığın nə dərəcədə real olduğunu, Azərbaycanın hərəkətlərinin nə dərəcədə sülhün möhkəmlənməsinə yönəldiyi təftiş etməklə məşğuldur. Amma zaman qısalır, Azərbaycanın sülhü gözləməsi üçün vaxtı yoxdur. Paşinyan hökuməti isə özünü qorumaq instiktinə sahib olduğunu hər addımda etdiyi ehtiyatlı davranışı ilə büruzə verməyə çalışır. Baş naziri siyasi və diplomatik sahədə kompromislər əldə olunmasından sonra, bunun vətəndaşlar üçün nə dərəcədə məqbul olacağı düşündürür. Düşünür ki, reallıq maksimalistlər üçün qismən ağrılı olacaq, amma başqa variant da yoxdur.

Qeyd edək ki, Ermənistan-Azərbaycan danışıqlar prosesi əsas istiqamətlər üzrə aparılıb: sülh və Ermənistan-Azərbaycan münasibətlərinin qurulması haqqında saziş, regionda nəqliyyat və iqtisadi kommunikasiyaların blokunun açılması, sərhədlərin müəyyən edilməsi və təhlükəsizlik, humanitar məsələlər.

Bu məsələlərin müzakirəsi üçün Azərbaycan Prezidenti və Ermənistanın baş naziri nin iştirakı ilə Avropa Şurası prezidentinin vasitəçiliyi ilə 3 üçtərəfli görüş keçirilib (6 aprel, 22 may və 31 avqust 2022-ci ildə Brüsseldə), Avropa Şurası Prezidentinin və Fransa Prezidentinin vasitəçiliyi ilə 1 dördtərəfli görüş (6 oktyabr 2022-ci ildə Praqada) və Rusiya Federasiyası Prezidentinin vasitəçiliyi ilə 1 üçtərəfli görüş (31 oktyabr 2022-ci il) keçirilib. Soçidə). 18 fevral 2023-cü il tarixində Münhendə Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə növbəti üçtərəfli görüş keçirilib. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və Azərbaycan Prezidentinin Xarici Əlaqələr üzrə müşaviri Hikmət Hacıyev ABŞ və Aİ-nin vasitəçiliyi ilə 4 dəfə, Rusiya Federasiyasının vasitəçiliyi ilə Ermənistan və Azərbaycanın baş prokurorları iki dəfə görüşüblər. Ermənistan və Azərbaycanın xarici işlər nazirləri Rusiya Federasiyası, ABŞ və digər tərəfdaşların vasitəçiliyi ilə 6 dəfə görüşüb.

İndi gözlər masadadır, münaqişə və müharibənin sonu diplomatik vasitələrlə həll edilməyə gedir. Azərbaycan sülh prosesi üçün bütün variantları təklif edir, Ermənistan isə məsələyə tərəddüdlə yanaşır. Yekun qərar verməkdə çətinlik çəkir. Çünki, terrora meylli cəmiyyətdən "tarixin təkrar olunması"nı hər an gözləmək olar.

***V.VƏLİYEV***

# Heydər Əliyev-100

# Tarix yazan böyük şəxsiyyət



**(Əvvəli ötən sayımızda)**

*"Səs" qəzeti redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş növbəti "dəyirmi masa" keçirilib*

"Səs" qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Tarix yazan Böyük Şəxsiyyət" mövzusunda "dəyirmi masa" təşkil olunub. "Dəyirmi masa"dakı müzakirələrdə Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, şöhrət ordenli, professor Şahlar Əsgərov, Milli Məclisin deputatı Aydın Mirzəzadə, Yeni Azərbaycan Partiyası təftiş komissiyasının üzvü Musa Musayev, tarixçi alim Anar Əliyev və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Gənclər Birliyinin üzvü, hüquqşünas Zaur Quliyev iştirak ediblər.

**Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, şöhrət ordenli, professor Şahlar Əsgərov** hər kəsin Ulu Öndərin dəyərli fikirlərini əzbərləməsinin vacib olduğunu bildirmişdir: Heydər Əliyev deyib ki, əgər hər bir ölkənin vətəndaşları öz hüquqlarını anlayar və qoruya bilərsə, o zaman ən kiçik dövlətlər belə qüdrətli məmləkətlər qədər qüdrətli, güclü olar. İnsanların öz hüquqlarını anlayıb, müdafiə etməsi yalnız təhsil vasitəsilə mümkündür. Bunun başqa yolu yoxdur. Digər bir fikrində isə belə demişdir: "Bizim dövlətimizin gələcəyi gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır".



Bu dəyərli fikirlərdə böyük məna var. Hər biri bir məktəbdir bu fikirlərin. Xalqa, millətə, gəncliyə göstərilən yoldur. Müstəqilliyin necə qorunması, ölkənin necə inkişaf etdirilməsi, ümumilikdə Azərbaycanın xoşbəxt gələcəyinin necə təmin olunması dərsidir.

Ulu Öndərin təhsil sahəsində rolu müstəsnadır. O, bütün sahələrlə yanaşı, təhsil sahəsində fəaliyyət göstərənlərə də böyük diqqət, qayğı göstərmiş, ilk dəfə olaraq "müəllimlər qarşısında baş əyirəm" sözünü işlətmişdir. Bir təhsil işçisi olaraq mən də Ulu Öndərdən çox qayğı görmüşəm. Ümumiyyətlə, hər kəs öz üzərində Onun qayğısını görüb.

Ümumilikdə Heydər Əliyev böyük təcrübəsi olan bir şəxsiyyət idi. Xüsusilə, idarəetmə təcrübəsi çox yüksəkdi. Üstəlik, Heydər Əliyev nəzəri biliklərə də mükəmməl yiyələnmişdi. Onun hələ sovet dövründə etdiyi çıxışlardan da bunu görmək mümkün idi. Buna görə də o, ilk növbədə Azərbaycanda qanunsuz silahlı dəstələrin tərksilah edilməsi barədə qərar verdi: ölkə dövlət tərəfindən idarə olunar, silahlı dəstələr tərəfindən yox.

Bir daha vurğulamaq istəyirəm ki, ziyalıların müraciəti və Heydər Əliyevin cavabı Azərbaycan tarixində dönüş nöqtəsi oldu. Dönüş nöqtəsi olduğu üçün Azərbaycanın taleyi də tamamilə dəyişdi. Bilirsiniz ki, iqtisadiyyatda böyük tənəzzül gedirdi. Bu tənəzzül təqribən 1994-cü ilin axırınadək davam etdi. 1995-ci ildə tənəzül dayandı və iqtisadi tərəqqi başladı. Çörək qıtlığı aradan qalxdı, ölkə qanunsuz silahlı dəstələrdən azad oldu. "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə nəinki həmin illər, böyük bir epoxa üçün çox önəmli oldu. Azərbaycan ayaq üstdə hələ zəif dayandığı vaxtda öz neftini sataraq gəlir əldə etməyə başladı. Ölkəmiz beynəlxalq proseslərə qoşuldu. 2001-ci ildə Avropa Şurasının üzvü oldu. Heydər Əliyev Strasburqa gedərək orda çıxış etdi. Dedi ki, biz, əlbəttə Avropa dəyərlərini mənimsəməyə gəlmişik. Amma eyni zamanda əliboş gəlməmişik. Biz də öz dəyərlərimizlə gəlmişik. Yəni, Azərbaycan dəyərləri də dünyaya təqdim edildi.

Ulu Öndər xarici səfərlərə gedəndə Azərbaycan xəritəsini də özü ilə götürürdü. Harada çıxış edirdisə, o xəritəni divardan asdırırdı, deyirdi baxın, bura Azərbaycan, bura Ermənistan, bura Qarabağdır. Deyirdi, baxın, bura bizim ərazimizdir. Bizim ərazimizi Ermənistan silahlı qüvvələri zəbt edib. Heydər Əliyev yeri gələndə böyük siyasətçi, yeri gələndə coğrafiya müəllimi, yeri gələndə böyük ağsaqqal idi. Bax, bu yollarla 2003-cü ilədək Heydər Əliyev, 2003-cü ildən sonra isə cənab İlham Əliyev Azərbaycanı gətirib bugünki inkişaf səviyyəsinə çıxardı. Məhz Böyük Şəxsiyyət Heydər Əliyevin idarəetmə məharətinin dərindən öyrənilməsinin, inkişaf konsepsiyasının layiqli şəkildə davam etdirilməsinin bəhrələri idi ki, biz 2020-ci ildə 44 günlük Vətən müharibəsində erməni adlı düşməni torpaqlarımızdan qova bildik. Cənab İlham Əliyevin sərkərdəliyi, Milli Ordumuzun səyi,Azərbaycanın ötən illərdə yetişdirdiyi gənc nəslin qeyrəti, hünəri, Ali Baş Komandanın hər bir əmrini ləyaqətlə, bacarıql yerinə yetirmələri nəticəsində torpaqlarımız-namusumuz xilas oldu. Bu ağır yükü çiyinlərimizdən ata bildik. Bütün dünya Azərbaycanın hünərinə şahid oldu, heyran qaldı.

Bütün bunların təməlində isə Heydər Əliyev siyasəti dayanır. Ulu Öndər nə qədər ki, Azərbaycan var, yaşayacaqdır. Onun xalqın qəlbində qurduğu abidə əbədi bir abidədir.

**Milli Məclisin deputatı Aydın Mirzəzadə** vurğuladı ki, Azərbaycanın tarixi 1993-cü il 15 iyunadək və 15 iyundan sonrakı dövrə bölünür. Heydər Əliyevin böyük siyasətə qayıdışı ilə fəlakətlərdən, vətəndaş müharibəsi təhlükəsindən qurtulduq. Bu Qayıdış dövlətçiliyimizi, müstəqilliyimizi itirmək təhlükəsindən qorudu. Eyni zamanda, böyük dövlətlərin əlində siyasi bir alətə çevrilməkdən, torpaqlarımızı itirmək qoruxusundan qorudu. Həmin dövrdə Azərbaycanda olan siyasi qüvvələrin nə müstəqilik, nə dövlətçilik, nə də ki, gələcək inkişafla bağlı hər hansı bir proqramı yox idi. Təcrübəsizlik və milli maraqlara zidd addımlar atmaq Azərbaycan üçün böyük bir fəlakətlər zolağı açmışdır. Heydər Əliyevin hakimiyyətə gəlişi bu fəlakətlərdən Azərbaycanı birmənalı



şəkildə qurtardı. Qeyd edim ki, Azərbaycan bir iqtisadi-siyasi sistemdən digərinə keçdi. Sosialist iqtisadiyyatını azad, demokratik bazar iqtisadiyyatı olan bir sistemə keçirdi.

Heydər Əliyev öz dövründə 3 böyük məsələni həll edib. 1993-2003-cü ilə qədər Heydər Əliyevin gördüyü işlər hüquqi və demokratik dövlətin əsasını təşkil edib. 1995-ci ildə Azərbaycan Konstitusiyasına müəlliflik edib, 1996-cı ildə özəlləşməyə start verilib, 1997-ci ildə isə mətbuatdan senzura götürülüb, ölüm hökmü ləğv olunub, 1997-ci ildə Avropa Şurasına qəbul üçün müvafiq addımlar atılıb, Qarabağ probleminin iki dövlət arasındakı münasibətlərdə beynəlxalq siyasətin gündəliyə salınması və keçirilməsinə səbəb olub. Heydər Əliyev həmin dövrün problemlərini həll edə bilib. Əgər 1993-cü ildə Azərbaycanın büdcəsi dağılmış vəziyyətdə idisə, 2003-cü ildə 1 milyard 200 milyon səviyyəsində büdcə ayrılıb. Heydər Əliyev dövrünün problemlərini həll edib.

İkinci dövrdə gördüyü iş ondan ibarətdir ki, Heydər Əliyev gələcəyə aparan yolu müəyyənləşdirə bilib. Biz Heydər Əliyev yolu ilə gedirik. Nə qədər ki, xalq Heydər Əliyevin yolu ilə gedəcək, o qədər də qələbələr qazanacaq.

Üçüncü vacib məsələ isə Heydər Əliyevin Azərbaycan xalqı üçün gördüyü böyük işlərdir. Heydər Əliyev Azərbaycanın gedəcəyi yolla bizi aparan komandanı formalaşdırıb. Bu üç məsələ bir-biri ilə üzvü surətdə bağlıdır. Bu gün cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın problemlərini həll edən, ölkəyə şöhrət gətirən komanda Heydər Əliyev məktəbinin yetirmələridir. Heydər Əliyev məktəbi onun apardığı siyasətin reallığıdır. Bu gün müxalifət belə Heydər Əliyev məktəbinin yetirməsidir. Ulu Öndər onlara siyasi mədəniyyət mübarizəsini öyrətdi.

İndiki inkişaf, nəticələrimiz Heydər Əliyevin 1993-cü il 15 iyunda hakimiyyətə gəlişi ilə başladığı Azərbaycanın 100 illərlə inkişafı yolunun ilk günü idi. Bu gün Azərbaycan nə uğurlar əldə edib? Birincisi, bir millət kimi güclüyük, demokratiyamız, insan hüquqlarımız və azad mətbuatımız var. Həmin dövrdə Heydər Əliyev parlamentə rəhbər seçilərkən bu proqramı ortaya qoydu. Bu gün Azərbaycan iqtisadiyyatı inkişaf edir, ölkə manatı bu gün stabildir və vətəndaşlar ona etibar edirlər. Azərbaycan manatı bu gün xaricdə də nüfuzu olan valyutalardan biridir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək onlarla şəhər, kənd, yüksəklik azad olundu.

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Vətən müharibəsinin 44 günü ərzində dövlətimiz, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Bütün bunlar təbii ki, Böyük Heydər Əliyev siyasətinin, uzaqgörənliyinin təntənəsidir.

**Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının üzvü Musa Musayev Azərbaycanın iqtisadi yüksəlişini belə xarakterizə etdi:**

- Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsi olaraq iqtisadiyyatımızın inkişafında neft amilinə yüksək dəyər verildi, malik olduğumuz təbii resurslardan səmərəli istifadə etmək məqsədilə gərgin səylərin nəticəsində 1994-



cü il 20 sentyabr tarixində "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycanın iqtisadi müstəqilliyinin əsası qoyuldu, siyasi müstəqillik üçün möhkəm təməl formalaşdı. "Əsrin müqaviləsi"nin əhəmiyyətindən bəhs edərkən onun iqtisadi tərəfi ilə yanaşı, siyasi əhəmiyyəti daha çox təhlil edilir. Çünki bu saziş Azərbaycana inamı artırdı, etibarlı tərəfdaş kimi nüfuz qazanmasında mühüm rol oynadı. Təsadüfi deyil ki, "Əsrin müqaviləsi"ndən sonra neçə-neçə neft-qaz sazişləri, Anlaşma Memorandumları imzalanıb. 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması, əməkdaşlığın coğrafiyasının regional çərçivədən çıxaraq beynəlxalq müstəvidə inkişafı da deyilənlərin təsdiqidir.

Çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri reallığa çevrildi, Cənub Qaz Dəhlizi layihəsi görülən işlərin zirvəsi kimi dəyərləndirilərək reallaşdırıldı. Onun əsas seqmentlərindən olan TANAP və TAP layihələri uğurla icra edilərək istifadəyə verildi. Ulu Öndərin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondu neft-qaz gəlirlərinin idarə olunmasında şəffaflıq prinsipini qoruyaraq mühüm sosial-iqtisadi layihələrin icrasını təmin edir.

Ümummilli Lider Azərbaycanda demokratik cəmiyyətin yaradılması istiqamətində mühüm addımlar atdı. 1995-ci il 12 noyabrda ümumxalq səsverməsi yolu ilə qəbul olunan milli Konstitusiyamız dövlətçiliyimizin əsaslarının yaradılmasında əsas rol oynadı. Demokratik cəmiyyətin varlığının əsas atributları olan insan hüquqlarının qorunması, azad mətbuatın formalaşması, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində atılan addımların uğurlarını bugünkü reallıqlarımızda aydın görürük. Azərbaycanın demokratiya təcrübəsi dünyaya nümunə göstərilir.

Dahi şəxsiyyətin Azərbaycan dövləti qarşısında xidmətlərindən bəhs edərkən onun müstəqil dövlət kimi beynəlxalq aləmdə yeri və rolunun möhkəmlənməsi istiqamətində gördüyü işləri, böyük səyləri nəticəsində Azərbaycanın ətrafında yaradılan informasiya blokadasını yarmasını xüsusi qeyd etməliyik. Ümummilli Lider Qarabağ həqiqətlərini faktlar əsasında beynəlxalq ictimaiyyətə çatdırmaqla erməni yalanlarının ayaq tutub yeriməsinin qarşısını aldı. Bir daha dünyaya sübut edildi ki, Azərbaycan müstəqil dövlətdir, beynəlxalq səviyyədə tanınan ərazilərinin geri qaytarılması, ərazi bütövlüyünün bərpası üçün bütün imkanlardan istifadə edəcək və bu, onun suveren hüququdur.

Məhz Ümummilli Liderin qətiyyəti addımları sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşdı, xarici siyasətimizin əsas məsələsi olan Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişdi, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüququn normativ sənədlərində öz əksini tapdı.

Ulu öndər Heydər Əliyev, eyni zamanda, "Sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordun olmalıdır" tezisini önə çəkərək ordu quruculuğu sahəsində önəmli addımlar atdı. Bu faktı xüsusi qeyd etməliyik ki, hələ hakimiyyətinin birinci dövründə Azərbaycanı gələcəkdə müstəqil dövlət kimi görmək istəyən Ümummilli Lider bir sıra mühüm addımlar atmışdır.

Bu ümumiləşdirməni apara bilərik ki, Ümummilli Lider yeni, müasir Azərbaycanı qurdu. O, "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" fikirləri ilə xalqına, dövlətinə bağlılığını ifadə etdi. Onun düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanın gələcəyi üçün möhkəm baza formalaşdı ki, son 20 ildə bu siyasi kursun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan ən yüksək zirvələri fəth edir.

2003-cü ildən başlanan Böyük yolun davamının Azərbaycana qazandırdığı ən böyük uğur 30 ilin işğalına, torpaq həsrətinə son qoyulması, ərazi bütövlüyümüzün bərpasıdır. Bu Zəfəri şərtləndirən amillər ölkəmizin ayrı-ayrı sahələrdə qazandığı uğurlar, ən əsası gənc nəsildə Vətən, torpaq sevgisinin dərinləşməsi, vətənpərvərlik hissinin daha da artmasıdır. 2003-cü ildə keçirilən andiçmə mərasimində Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdiriləcəyini bildirən cənab İlham Əliyevin son 20 ildə fəaliyyətinə diqqət yetirsək, hər vədini konkrekt əməli işdə təsdiqlədiyini görmək mümkündür. Ölkədə sabitliyin, iqtisadi tərəqqinin mövcudluğunu bütün inkişafın əsası kimi dəyərləndirən ölkə Prezidenti neft gəlirlərindən səmərəli istifadəni təmin etməklə qeyri-neft sektorunu inkişaf etdirdi. Cənab İlham Əliyev bütün çıxışlarında bəyan etdi ki, inkişaf etmiş ölkələrin təcrübəsinə diqqət yetirsək, bu tərəqqinin əsasında bilik, savad, yeni texnologiyalar dayanır. Məhz bu kontekstdən yanaşaraq dövlətimizin başçısı İlham Əliyev "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürdü. Son 20 ilin uğurlarına diqqət yetirsək bu tezisin artıq real həyatda öz təsdiqini tapdığını görərik.

Bu gün paytaxt və bölgələr arasında fərq tamamilə aradan götürülüb. Rayonlar arasında sağlam rəqabət gedir. Regional inkişaf proqramlarının uğurlu icrası hər bir bölgənin, kənd və qəsəbənin həyatında özünü qabarıq şəkildə göstərir. Dayanıqlı inkişafın təmin edilməsi üçün ciddi islahatların aparılması əsas hədəflərdən biri kimi qarşıya qoyulub. "İslahatlara alternativ yoxdur   Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər" söyləyən dövlətimizin başçısı İlham Əliyevin uğurlara yol açan düşünülmüş və məqsədyönlü siyasəti, ayrı-ayrı sahələri əhatə edən Dövlət proqramları, ənənəyə uyğun olaraq hər ilin bir sahənin adı ilə bağlanması və bu istiqamətdə təkmil islahatların həyata keçirilməsi Azərbaycanın beynəlxalq maliyyə qurumlarının, reytinq agentliklərinin hesabatlarında da liderliyini qorumasını şərtləndirir.

İnkişaf modeli dünyaya nümunə göstərilən Azərbaycan beynəlxalq maliyyə və iqtisadi qurumların hesabatlarında ən islahatçı ölkə kimi qərarlaşıb. Son 20 ildə Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi nəticəsində ölkəmiz sabitlik diyarı, iqtisadi möcüzələr ölkəsi kimi mövqeyini daha da möhkəmləndirib, müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkanda yerləşən ölkə olaraq beynəlxalq tədbirlərə ev sahibliyi ilə diqqət çəkib. Dünyada, o cümlədən ölkəmizdə koronavirus infeksiyası ilə mübarizə dövrü kimi xarakterizə olunan son dövrdə də Azərbaycan qlobal təşəbbüsləri, videoformatda təşkil olunan beynəlxalq əhəmiyyətli tədbirlərin təşkilatçısı və iştirakçısı kimi də diqqət çəkib. Dövlətimizin başçısının təşəbbüsü ilə Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşləri, BMT Baş Assambleyasının Xüsusi Sessiyası keçirilib. Azərbaycan 30-dan artıq ölkəyə humanitar dəstək göstərib. Bütün bunlar Azərbaycanın hər addımında səmimi olduğunu, dövlətlərlə, beynəlxalq təşkilatlarla münasibətlərində reallığa əsaslanaraq qarşılıqlı hörmət və maraq prinsiplərini əsas tutduğunu təsdiqləyir.

Bu gün Azərbaycana hansı sahədən baxsaq inkişaf, tərəqqi açılmazdır. Ölkəmizdə ordu quruculuğu sahəsində atılan addımların uğurlu nəticələri də göz önündədir. 44 günlük İkinci Qarabağ müharibəsində tarix yazan Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında olduğunu bir daha təsdiqlədi. Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı bu Qələbənin sevincini yaşayır. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində dünyaya səs salan bu Zəfərimiz tariximizin ən şanlı səhifəsidir. Qalib ölkənin qalib Lideri kimi işğaldan azad edilmiş torpaqlarımıza davamlı səfərlər edən cənab İlham Əliyev hər dəfə bu fikri bildirir ki, hətta hava da sevinir, çünki bu torpaqlara əsl sahibləri gəlib.

Azərbaycan Ordusu erməni silahlı qüvvələrini iti qovan kimi torpaqlarımızdan qovdu. Ordumuzun gücü, qüdrəti qarşısında diz çökən Ermənistanın illərdir yaratdığı "məğlubedilməz erməni ordusu" mifi darmadağın edildi. Bu gün dünya Azərbaycan Orldusunun qəhrəmanlığından, döyüş taktikasından bəhs edir. "Əlbəttə ki, hərbi sahədə müharibə bizim şanlı səhifəmizdir. Amma, eyni zamanda, təcrübədir" söyləyən ölkə Prezidenti bildirir ki, indi beynəlxalq hərbi ekspertlər deyirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb: "Biz elə planlaşdırmalıyıq ki, bəlkə də əlli ildən sonra XXII əsrin müharibəsinə də hazır olaq. Çünki güc hər şeyi həll edir. Əfsuslar olsun ki, bu, belədir. Beynəlxalq hüquq işləmədiyi yerdə ancaq güc amili həlledici ola bilər". Vətən müharibəsi beynəlxalq münasibətlərdə güc və beynəlxalq hüququn nə kimi rol oynadığını açıqladı.

Azərbaycanın son illərdə informasiya mübarizəsində qazandığı uğurlar diqqəti cəlb edir. 2011-ci ildə Azərbaycanın 193 ölkədən 155-nin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 2019-cu ildə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan, 120 üzvü sıralarında birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi, dövlətimizin başçısı İlham Əliyevin Rusiyanın Soçi şəhərində dünyanın məşhur "beyin mərkəzləri"ndən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun "Şərq şəfəqləri və dünya siyasi quruluşu" mövzusunda XVI illik iclasında, MDB Dövlət Başçıları Şurasının Aşqabad sammitində çıxışı, "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı və sair kimi diplomatik uğurlarımız münaqişənin həllində stimulverici amil oldu. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub, ölkəmizin həyatında yeni səhifə açılıb, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq və bərpa işləri həyata keçirilir. Tezliklə xalqımız hər bir vədini konkret əməli ilə təsdiqləyən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Böyük Qayıdışın da sevincini yaşayacaq. Bunların ümumiləşdirilmiş ifadəsi bu gün Azərbaycanın adının tarixə qalib ölkə, Prezident İlham Əliyevin qalib Sərkərdə, xalqımızın məğrur, yenilməz xalq, ordumuzun rəşadətli ordu kimi yazılmasıdır. Ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss edən dövlətimizin başçısı İlham Əliyev hər birimizin qürur ünvanıdır. Cənab İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşən xalqımızın Liderinə sevgisi sonsuzdur.

**Tarixçi alim Anar Əliyev:**

- Azərbaycan müstəqilliyinin ilk illəində çox böyük problemlərlə üzləşirdi. İqtisadiyyatı məhv olmuşdu, sənayesi sıradan çıxmışdı. İnsanlar gəlirlərini demək olar ki, tamamilə itirmiş, adi ehtiyaclarını belə ödəyə bilmirdilər. Belə bir dövrdə Ermənistan Azərbaycana qarşı böyük bir işğalçılıq siyasəti həyata keçirdi, həm də böyük güclərin dəstəyi ilə. Bu çətinliklərdən xilas olmaq üçün Azərbaycana böyük bir lider lazım idi. Ulu Öndəri xalq təkidlə hakimiyyətə gətirməklə bu problemin həlli yollarını tapdı.



90-cı illərin ən böyük problemlərindən biri də informasiya blokadası məsələsi idi. Bizim sözümüzü heç kim eşitmirdi, üzləşdiyimiz haqsızlıqlarla bağlı fikirlərimizi dinləmək istəmirdilər. Belə bir dövrdə, 1994-cü ildə Ulu Öndərin BMT Baş Assambleyasının 49-cu sessiyasında böyük bir çıxışı oldu. Müstəqilliyini yenicə qazanmış bir ölkənin problemləri ilə bağlı belə mötəbər kürsüdən çıxış etmək heç də asan deyildi. Hətta indiki dövrdə bunu bacara bilməyən dövlət başçıları var. Bu, Ulu Öndərin şəxsi nüfuzu hesabına idi. Məhz o dövrdə Heydər Əliyev deyiləndə Azərbaycan başa düşülürdü, xatırlanırdı. Heydər Əliyev adı, nüfuzu Azərbaycanı öz arxasınca çəkərək məhv olmadan, dağılmadan xilas etdi. Məhz Heydər Əliyevin sayəsində informasiya blokadası yarıldı, səsimizi dünyaya eşitdirə bildik.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə dövlətimizin başçısının ətrafında səfərbər oldu.

Azərbaycan Prezidentinin Vətən müharibəsi ərəfəsində və gedişi ərzində 30-a qədər xarici KİV təmsilçilərinin, xüsusilə "Əl-Cəzirə", "Əl-Ərəbiyə" "TRT Haber", "Pervıy Kanal", "CNN Türk", "Euronews", "CNN International", "Sky News", "RBK", "Haber Global", "Haber Türk", "NTV", "France 24" televiziya kanallarına, Rusiyanın TASS , Ria Novosti agentliyi üçün, "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il fevralın 26-da mətbuat konfransında Dağlıq Qarabağın statusu məsələsinə də "nida" işarəsi qoyaraq bildirdi ki, Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil, onları bu günə salan səbəblərdən biri də məhz o idi, xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar: "Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir".

Hər zaman, xüsusilə, Münhen Təhlükəsizlik Konfransında bəyan etdiyi kimi Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

Nəticədə bu, informasiya müharibəsində də Azərbaycan haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi. Uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin Zəfər çalmasını şərtləndirdi.

**Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Gənclər Birliyinin üzvü, hüquqşünas Zaur Quliyev:**

- Ümummilli lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etdi. Gənclərin sosial, iqtisadi və digər problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir. Bu sənədlər gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib.

Artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəsil formalaşıb. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb.



Gənclər də öz növbəsində dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

44 günlük Vətən müharibəsində də Azərbaycan gəncləri böyük şücaət göstərdilər. Torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən Vətən müharibəsi Azərbaycan xalqının milli həmrəyliyinin, monolit birliyinin təntənəsi oldu.

Azərbaycan gəncləri Vətən müharibəsindən şərəflə çıxdılar, Prezident İlham Əliyevin gözləntilərini layiqincə doğrultdular. Müharibəyə yollanan gənclərin hamısı döyüşlərdə qəhrəmancasına iştirak etdi. Onlar bütün dünyaya Azərbaycan gəncinin nəyə qadir olduğunu göstərdilər. Hər biri öz cəsurluğu, igidliyi ilə vətənpərvərlik salnaməsi yazdı, qələbə dolu döyüş yolu ilə dillərdə dastana döndü. 44 günlük müharibədə Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalanların böyük əksəriyyətini də məhz gənclər təşkil etdi. Biz şəhidlərimizin əziz xatirəsini hər zaman böyük ehtiramla anırıq. Bütövlükdə, bu müqəddəs müharibədə gənclərimiz tarix yazdı.

Bundan sonra qarşımızda dayanan əsas vəzifə müstəqil dövlətimizi daha da gücləndirməkdən ibarətdir. Hesab edirəm ki, bu işdə də Azərbaycan gəncliyi ön sıralarda olacaq.

***Mətanət Məmmədova***

# Xalqın milli sərvəti - Ana dilimiz!

## Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi qəbul edildi




Milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişafında ana dilimizin rolu böyükdür. Dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə onunla eyni taleyi yaşayıb müasir dövrə gəlib çatan ən böyük mənəvi sərvətlərimizdəndir. Dilimizin keçdiyi çətin dövrlərdən biri də SSRİ dövrü idi. Hələ sovet dövründə ana dilimizin qorunması və inkişaf etdirilməsi, Azərbaycan dilinin dövlət dili statusunun təmin edilməsi ilə bağlı ümummilli lider Heydər Əliyev tarixi faktlar gerçəkləşdirmişdi. Məhz Ulu Öndərin qayğı və diqqəti nəticəsində o dövrdə Azərbaycan dili ölkəmizdə dövlət dili kimi rəsmiləşmişdi. Dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin səyi və təşəbbüsü ilə 1978-ci il aprelin 21-də Azərbaycan SSR Konstitusiyasına "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsi yazılıb. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsi və təsbit olunmasından sonra Azərbaycan dilinin istifadəsində və inkişafında yeni mərhələ başladı. Əlbəttə ki, hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən, onu tanıdan ana dilidir. Dil hər bir xalqın varlığının ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amildir. Ana dili dövlət rəmzlərimiz olan bayraq, gerb, himn kimi müqəddəsdir.

Hələ ötən əsrin 70-ci illərində dövlət dilinin qorunması uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider Heydər Əliyev bütün ziyalıları, vətəndşlarımızı səfərbər edərək, ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb etmişdir. 1969-cu ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar öz nəticəsini verməyə başladı. Ümummilli Lider Heydər Əliyev ana dilinin saflığının qorunması üçün mühüm addımlar atdı. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir", deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə qətiyyət və prinsipial mövqedən çıxış edirdi. 1978-ci ildə SSRİ rəhbərliyi milli dəyərlərə, dilə birmənalı yanaşdığı halda, Ümummilli Liderin qətiyyəti və məntiqi nəticəsində, Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edildi. Bu, dilimizə qarşı olan tələbkarlıq idi.

Onu da bildirək ki, həmin illərdə Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb.1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir." Ulu Öndər Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır.

Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də Referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə, bilavasitə bağlıdır. İmperiya dövründə ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu və cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə, müvafiq qanun qəbul olunması ilə nəticələndi. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günü kimi qeyd olunması ilə bağlı 9 avqust 2001-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Fərman imzalandı. Ümummilli Lider Heydər Əliyevin imzaladığı sərəncamlar əsasında Azərbaycan dilinin təkmilləşməsinə, onun inkişafına yol açıldı. Daha sonra Ulu Öndər Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Sərəncamı da milli-mənəvi dəyərlərin qorunub-saxlanması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətin əsasını təşkil edən amillərdəndir.

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub.

Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü dil siyasəti Azərbaycan dilinin inkişafına öz töhfələrini verir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür. Hər bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşı olan dili kimliyimizi təsdiq edir.

***Zümrüd BAYRAMOVA***

# Əlaçılar qəbul imtahanında yüksək nəticə əldə edə bilmir?

## *TƏHSİL EKSPERTİ MÜNASİBƏT BİLDİRDİ*

**"Məktəbdə əlaçı olmaq hələ qəbul imtahanında yüksək nəticə qazanmaq anlamına gəlmir. Mövcud təhsil modelində yaxşı oxuyanın zəif, zəif oxuyanın yaxşı nəticə əldə etməsi təbii haldır". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.**

Ekspert sözlərinə belə davam edib: "Testin tətbiqinə başladığımız ilk illər belə hesab edirdik ki, indiyədək bizdə tətbiq edilən qiymətləndirilmə üsulları - sorğu şəklində aparılan şifahi və yazılı imtahanlar heç də bütün hallarda obyektiv qiymətləndirilməni təmin edə bilmir və qiymətləndirmənin həyata keçirilməsi üçün müasir tələblərə cavab verən ən yaxşı vasitə dünyanın əksər ölkələrində daha geniş tətbiq edilən test üsulundan istifadə olunmasıdır. Belə ki, test qiymətləndirmənin daha ədalətli üsulu olub, qiymətləndirmə zamanı bütün təhsilalanlar qarşısında bərabər şərt qoymaqla subyektivliyi praktik olaraq aradan qaldırır. .





Bir də ki, test məhdud vaxt ərzində cavablandırılan və şəxsiyyətin bilik, bacarıq və vərdişlərini kəmiyyət və keyfiyyət baxımından qiymətləndirmək üçün tətbiq olunan standartlaşdırılmış tapşırıqlar olduğundan bunun vasitəsilə öyrənilən bütöv bir fənni, yaxud da ixtisas sahəsini əhatə etmək və qiymətləndirmək mümkündür. Bu, məktəblinin, tələbənin nailiyyətlərinin şəffaf və obyektiv qiymətləndirilməsinin həyata keçirilməsini təmin edir. Test - aparılma məqsədlərindən asılı olaraq standartlaşdırılmış bir vasitə olub, müəyyən standart üzrə, təhsilalanın nailiyyətlərinin ölçülməsini həyata keçirir"

Nadir İsrafilov söyləyib ki, bir müddət keçdikdən sonra fikirlər haçalandı, məsələyə münasibət başqalaşdı: "Bir çox hallarda testlərin düzgün tərtib edilməməsi, məktəbdə tədris olunan fənn proqramları ilə uzlaşmaması təhsilalanların dərslikləri üzrə deyil, daha çox test kitabçaları üzrə hazırlaşmaları, test tapşırıqlarına məktəbdə tədris olunmayan məntiqə dair sualların salınması və digər bu kimi subyektiv səbəblər biliyin obyektiv qiymətləndirilməsini nəinki, təmin edə bilmədi, hətta çoxsaylı lüzumsuz apellyasiyalara səbəb oldu ki, bu da zaman-zaman müəyyən narazılıqlarla müşayət oludu. Nəticə onunla sonuncland ki, bir ara DİM və Təhsil Nazirliyi arasında bir növ "soyuq müharibə"ə bənzər qarşıdurma yarandı, abituriyentlərin zəif göstəricilərinin səbəbləri qarşılıqlı ittihamlarla davam etdi.

DİM Təhsil Nazirliyini məktəb tədrisinin zəifliyində, Təhsil Nazirliyi isə DİM-i proqram materiallarından kənar çıxmalarda suçlamaqla vəziyyətdən çıxmaq üçün cəhdlər göstərdi. Necə ola bilər ki, orta məktəbdə əla qiymətlərlə oxuyan qəbul imtahanlarında zəif nəticələr göstərsin və ya əksinə, orta məktəbdə zəif göstəriciləri olan qəbul imtahanlarında yüksək nəticə əldə etsin? Deyək ki, hansı ildəsə məktəbi bitirən şagirdlərin arasında təxminən 200 nəfəri buraxılış imtahanlarında maksimum nəticəni göstərir, medalla təltif olunur, qəbul imtahanlarında isə ən çoxu 14-15 abituriyent maksimum nəticə göstərir. Əksinə, orta məktəbi "əla" qiymətlərlə bitirən şagird ali məktəblərə qəbul imtahanlarına "3"ə bərabər nəticə göstərir.

Başqa sözlə, on bir ilin zəhmətini bir imtahanın nəticəsi əsasında dəyərləndirimək nə dərəcədə düzgündür və hansı məntiqdən irəli gəlir?

Nəhayət kompromis əldə edildi. 2016-cı ildə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin nəzdində sədr, 2 sədr müavini, və ictimai əsaslarla fəaliyyət göstərən 4 nəfər üzvdən ibarət tərkibdə Direktorlar Şurası yaradıldı. 2019-cu ildən ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanlarının və ali təhsil müəssisələrinə qəbul imtahanlarında 700 ballıq sistem saxlanılması şərti ilə (300+400) tətbiq olunan yeni model məhz bu cəhətdən faydalı oldu ki, yekun qiymətləndirmə zamanı həm buraxılış imtahanlarının, həm də qəbul imtahanlarının nəticələri nəzərə alınır. Həm də bu dəyişikliklər təkpilləli imtahan sisteminə keçid üçün stimul rolu oynadı. Deməli, bu istiqamətdə daha irəli getmək üçün təməl artıq hazırdır. Düzdür, bu model də bir o qədər təkmil deyil. Amma əvvəlki modellə müqayisədə daha məqsədəuyğundur.

Bununla belə məktəbdə əlaçı olmaq hələ qəbul imtahanında yüksək nəticə qazanmaq anlamına gəlmir. Mövcud təhsil modelində yaxşı oxuyanın zəif, zəif oxuyanın yaxşı nəticə əldə etməsi təbii haldır. Elə ola bilər ki, kimsə bu gün 500 bal yığa bilər, ikinci cəhddə heç 100 bal da yığa bilməz və ya əksinə. İmtahanda kimsə 100 bildiyindən 5 bilmədiyi, kiməsə cəmi 5 bildiklərindən elə biri düşə bilər. Hələ imtahan həyəcanı və digər stresslər də bir yana. Bir imtahanla abituriyentin biliyinə qərar vermək olmaz. Bu prosesin nizama salınmasının yeganə yolu, testin təkmilləşdirilməsi, imtahan prosedurlarının sadələşdirilməsi yolu ilə həyəcan faktorunun azldılması və qəbul formatının dəyişdirilməsində görürəm. Bu həm vaxt imkanına, həm də məzunların əlavə stress yaşamamasına kömək edə bilər

Hesab edirəm ki, ilk olaraq aralıq mərhələni - buraxılış imtahanı ilə qəbul imtahanlarını birləşdirmək yolu ilə təkpilləli vahid imtahan modelinə keçməliyik, baxmayaraq ki bu addımın atılmasında xeyli ləngimişik.

Halbuki, dünyanın bir çox aparıcı ölkələrində neçə illərdən bəridir ki, bu model uğurla həyata keçirilir. Belə bir modelə keçid ölkəmizdə təhsilin hamı üçün əlçatan olması kursunun əsas götürüldüyünü nəzərə almaq, xarici ölkələrlə adam başına düşən ali təhsillilərin sayına görə rəqabəti gücləndirmək, bütövlükdə təhsillə, konkret halda isə imtahanlarla bağlı prosedurları sadələşdirmək, ən başlıcası isə məzunlarımızın fiziki və psixoloji yükünü və deməli, gərginliyini xeyli azaltmaq, başqa sözlə, daha konkret desək eyni adamın, eyni biliyini iki imtahanla yoxlamağa heç bir ehtiyac olmaması baxımından təhsilimizin real perspektivləri ilə tam uzlaşan prosedur ola bilər. Yeni model həm də o cəhətdən faydalı ola bilər ki, yekun qiymətləndirmə zamanı həm buraxılış imtahanlarının, həm də qəbul imtahanlarının nəticələri proporsional nəzərə alınar".

***Ayşən Vəli***

# Fitrə kimə verilir?

***Xalq arasında fitrə adı ilə tanınan fitrə sədəqəsi insan olaraq yaradılmanın və Ramazanda oruc tutub bayrama çatmağın şükürüdür. Din baxımından zəngin olan və Ramazan ayının sonuna çatan müsəlmanın müəyyən insanlara sədəqə verməsi vacibdir.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Fitrəni kim verməlidir?

İnsan özünün və azyaşlı övladlarının fitrəsini verməyə borcludur. Hz. Peyğəmbər (s) buyurmuşdur ki, fitrə qul və azad, böyük və kiçik, kişi və qadın, bir sözlə hər bir müsəlman üçün vacibdir.

## Fitrə nə vaxt verilir?

Fitrə sədəqəsinin vacib olduğu vaxt Fitr bayramının birinci günüdür, lakin bayramdan əvvəl də verilə bilər. Bu daha da fəzilətlidir. Ancaq bayram günü və ya daha sonra da verilə bilər. Lakin bayram namazından əvvəl vermək müstəhəb sayılır. Şafii məzhəbinə görə, bayramın birinci günü günəş batandan sonra fitrə vermək düzgün deyil. Üzrlü səbəblər istisnadır. Ramazanın ilk günlərində də fitrə vermək olar.



## Fitrə kimə verilir?

Fitrə sədəqəsi öz qayğısına qala bilməyən yoxsul müsəlmanlara verilir. Vacibdir ki, fitrə sədəqəsi verməli olan şəxs bunlardan birbaşa və ya dolayısı ilə faydalanmasın. Eyni qayda zəkat üçün də keçərlidir. Bu səbəbdən insan öz zəkatını, fitrə sədəqəsini öz üsuluna və nəslinə verə bilməz. Həmçinin ər-arvad bir-birinə zəkat, fitrə və fidyə verə bilməzlər.



Hənəfilərə görə aşağıda sadalananlara fitrə verilmir:

a) Valideynlərə, babalara və nənələrə,

b) Oğul, oğul uşaqları, qız, qız uşaqları və onlardan doğulan uşaqlar;

c) arvadına,

d) Zəngin, yəni əsas ehtiyaclarından başqa nisab miqdarında mal sahibi olan şəxs;

e) Yeniyetmə olmamış, atası zəngin olan uşaq

Şafiilərə və Əbu Yusifə görə, müsəlman olmayana fitrə verilə bilməz.

## Fitrə necə müəyyən edilir?

Fitrənin məqsədi, yaşadığı cəmiyyətin həyat səviyyəsinə uyğun olaraq bir kasıbın gündəlik yeməyini qarşılamaq, bununla da onun bayram sevincində iştirakına töhfə verməkdir. Bu gün fitrə sədəqəsinin miqdarının müəyyən edilməsində insanın bir günlük (iki dəfə yemək) normal qida ehtiyacını ödəyəcək miqdarın ölçülməsi daha məqsədəuyğundur.

İnsan dini cəhətdən zəngin olanlara, oğluna (ana, ata, baba və nənə), övladlarına (övladlarına və nəvələrinə) və həyat yoldaşına fitrə sədəqə verə bilməz. Fitrə bir kasıba verilə və ya bir neçə kasıba paylana bilər.

Xatırladaq ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 11 mart 2022-ci il tarixli Fərmanına əsasən dini qurumların ianə qəbul etməsi məsələsi "Dini etiqad azadlığı haqqında" qanunun 18-ci maddəsinin 3-cü hissəsinə edilmiş dəyişiklikdə öz əksini tapıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ibadətgahlarda və məscidlərdəki nəzir qutularına nəzarətin Qafqaz Müsəlmanları İdarəsindən alınaraq Dövlət Komitəsinə verilməsi məsələsinə aydınlıq gətirmişdi.

Belə ki, qanunun 18-ci maddəsinə görə, dini qurumlar könüllü ianələr üçün müraciət edə, habelə bu ianələri, o cümlədən ianə edilmiş pul vəsaitlərini nağd və ya bank, poçt, plastik kart, elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə qəbul edə bilərlər.

Qanundan irəli gələn məsələləri tənzimləmək üçün qaydalar müvafiq qurumların nümayəndələrinin iştirakı ilə hazırlanır və proses başa çatdırıldıqdan, qaydalar təsdiq olunduqdan sonra ictimaiyyətə ətraflı məlumat veriləcək.



Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev: "Fitrə zəkatı bayram axşamı çıxarılır. Yəni, sabah bayramdırsa, bir gün qabaq, sonuncu günün axşamı elə ki, şam namazı oldu, insanlar fitrə zəkatını çıxarmalıdır. Fitrə zəkatı ailə üzvü neçə nəfərdirsə, hər ailə üzvünün adına çıxarılır. Bunu ailə başçısı çıxarır.

Ən çox istifadə olunan ərzaqdan dinimizdə belədir 3 kiloqram hər adam başına hesablanır. Ən çox istifadə olunan ərzaq undur. Biz Qafqaz Müsəlmanları İdarəsi olaraq tövsiyə edirik ki, imkanı olan insanlar, maddi durumu normal olan insanlar fitrə zəkatını çıxarır. Bu da yoxsullar və imkansızlar üçün bir paydır. Mümkündürsə, bunu biraz orta səviyyədə olan ərzaqdan hesablasalar daha gözəldir. Amma bir adamın imkanı o dərəcədədir ən aşağı yəni miqdarda, məbləğdə olan ərzaqdan hesablayırsa, eyib etməz onu hesablaya bilər. Yəni, undan, buğdadan onu hesablayıb götürmək ixtiyarına malikdir. Onun özünü o şəkildə verə bilər, və yaxud pulunu hesablayıb verə bilər ki, bu daha gözəldir. Bir sözlə, pulunu versə daha yaxşıdır.



Amma orta səviyyədə götürüləndə düyüdən hesablasa daha yaxşıdır. Düyüdən hesablananda hər adam başına təqribən 10-15 manat məbləğində pul düşər ki, bunu insan bir dəfə ayırır və ayırdığı pulu da tanımadığı insana vermir, heç bir məscidə gəlib onu nəzir qutusuna qoymur, onu tanıdığı qohum-əqrəbasında olan yoxsula, imkansıza və ehtiyacı olana verir, qonşularında olan imkansıza özü aparıb verməlidir, özü çatdırmalıdır və yaxud öz yaxınını vəkil edir, kimsəyə tapşırır ki, məbləği aparıb o imkansıza çatdırırlar.

İmkanı müqabilində onu bayram günü, bayram namazına qədər versə daha yaxşıdır, birdən çatdıra bilməsə Zöhr namazına qədər versə daha yaxşıdır. Amma əgər bunu da heç cürə çatdıra bilmirsə, gün ərzində fitrə zəkatını imkansız, kasıb insana çatdırsın, o da bayrama qatılsın, o aldığı məbləği öz ailəsinin ehtiyaclarına xərcləyə bilsin. Qeyd edim ki, Nəzir qutuları və məscidlərə yığılan ianələrlə bağlı məsələ nəzarətdədir. Bunu da Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi məsələni tənzimləyir".

***Ayşən Vəli***




# Ramazan bayramında "Nar"dan hər kəsə 1GB hədiyyə!

"Nar" xalqımızın Ramazan bayramını təbrik edir və abunəçilərinə bu bayram münasibətilə 1GB internet hədiyyə edir. "Ramazan sevincini dostunla paylaş" kampaniyası ilə "Nar" abunəçiləri öz yaxınlarına pulsuz internet məqabaytları göndərə bilərlər. 1GB hədiyyə yollamaq üçün dostunun nömrəsini SMS-lə 760-a göndərmək və ya *760#nömrə#YES şifrəsini yığmaq kifayətdir. Hədiyyə olunmuş internet trafikinin istifadə müddəti 5 gündür. Qeyd edək ki, abunəçi kampaniya müddətində yalnız bir dəfə hədiyyə göndərə bilər, lakin alına biləcək hədiyyələrin sayı məhdudlaşdırılmır.

Hər zaman müştəri yönümlülük strategiyasına əsaslanan layihələri ilə abunəçilərini sevindirən "Nar"ın cari kampaniyaları ilə buradan tanış ola bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# On bir ayın sultanı Ramazan başa çatdı



**Aprelin 21-i səhər saat 9:00-da Azərbaycanımızın bütün məscidlərində, ibadət ocaqlarında Bayram namazları qılınacaq, dualar ediləcək**

İslam dünyasının ən müqəddəs bayramlarından olan və on bir ayın sultanı kimi dəyərləndirilən Ramazan başa çatır. Aprelin 21-i səhər saat 9:00-da Azərbaycanımızın bütün məscidlərində, ibadət ocaqlarında Bayram namazları qılınacaq, dualar ediləcək. Ramazan ayı haqqında müqəddəs Qurani Kərimdə yer alan ayələrdə geniş və əhatəli təsvirlər verilib: "Ramazan ayı mübarək bir aydır. Allahu təala sizə Ramazan orucunu fərz etdi. O ayda rəhmət qapıları açılar, Cəhənnəm qapıları bağlanar, şeytanlar bağlanar. O ayda bir gecə vardır ki, min aydan daha qiymətlidir. O gecənin [Qədr gecəsinin] xeyirindən məhrum qalan hər xeyirdən məhrum qalmış sayılar". [Nəsai]"Ramazan ayında oruc tutmağı fərz bilib, savabını da Allahu təaladan gözləyərək oruc tutanın günahları bağışlanar".

[Buxari]"Ramazan orucunu tutub ölən adam Cənnətə girər". [Deyləmi]"Ramazan ayı gəlincə "Ey xeyir əhli xeyirə qaç! Şər əhli sən də pisliklərdən əl çək" deyilir". [Nəsai]"Ramazan bərəkət ayıdır. Allahu təala bu ayda günahları bağışlayar, duaları qəbul edər. Bu ayın haqqını güdün! Ancaq Cəhənnəmə gedəcək olan bu ayda rəhmətdən məhrum qalar". [Təbərani]"Şərif Ramazan ayı gəldiyi zaman Allahu təala mələklərə möminlərə istigfar etmələrini əmr edər". [Deyləmi]"Fərz namaz sonrakı namaza qədər; Cümə sonrakı Cüməyə qədər; Ramazan ayı sonrakı Ramazana qədər olan günahlara kəffarə olar". [Təbərani]"Arxa-arxaya üç gün oruc tuta bilən Ramazan orucunu tutmalıdır". [Əbu Nuaym]"Ramazan orucu fərz, təravih sünnədir. Bu ayda oruc tutub gecələrini də ibadətlə keçirənin günahları bağışlanar". [Nəsai]"Bu aya Ramazan deyilməsinin səbəbi günahları yandırıb əritdiyi üçündür". [i. Mənsur]"Ramazan ayında ailənizin nəfəqəsini bol edin! Bu ayda çəkilən xərclər Allah yolunda çəkilən xərclər kimi savabdır". [İbni Əbiddünya]"Ramazanın əvvəli rəhmət, ortası bağışlama, sonu isə Cəhənnəmdən qurtuluşdur". [i. Əbiddünya]"İslam kəlmeyi-şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və həcc etməkdir". [Müslim]"Cənnətdəki gözəl köşklər sözü xoş, salamı çox, yemək yedirən, oruca davam edən və gecə namazı qılan kəslərə verilər". [İbni Nəsr]"Oruc tutan mömininin susması təsbih, yuxusu ibadət, duası müstəcəb və əməlinin savabı da çoxdur". [Deyləmi]"Xüsusilə oruclu ikən çirkin, pis söz söyləməyin! Biri sizə sataşsa, ona "Mən orucluyam" deyin!" [Buxari]"Gerçək oruc yalnız yeyib-içməyi deyil, boş və həyasızca sözləri də tərk edərək tutulan orucdur". [Hakim]"Allahu təalanın gözlərin görmədiyi, qulaqların eşitmədiyi və heç kimin xəyalina belə gəlməyən nemət dolu süfrəsinə ancaq oruclular oturar". [Təbərani]"Allah yolunda bir gün oruc tutanı Allahu təala yetmiş illik məsafə qədər Cəhənnəmdən uzaqlaşdırar". [Buxari]"Təmizlik imanın yarısı, oruc da səbrin yarısıdır". [Müslim]"Oruclu ikən ölənə qiyamətə qədər oruc tutmuş kimi savab yazılar". [Deyləmi]"Oruclu ikən ölən Cənnətə girər". [Bəzzar]"Oruc tutan, namaz qılan kimsə mükafatını qiyamətdə ağlı qədər alar". [Xatib]

## Allaha yaxın olmaq üçün oruc tutmaq vacib buyurulub

Ramazan orucu Allaha yaxın olmaq məqsədilə tutulduğundan onun niyyəti vacibdir. Çünki Allaha yaxın olmaq üçün istənilən əməlin qiyməti niyyətdir. Bəs niyyət nədir? Niyyət - hər birimizin daxilində, qəlbində görmək istədiyi məqsəddir. Ramazan ayı müsəlmanlar üçün ən müqəddəs aydır və o, on bir ayın sultanı adlandırılmışdır. Uca Allah (c.c) bu ayla bağlı buyurur: "İnsanlara doğru yolu göstərən, bu yolun və (haqqı batildən) ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir." (Bəqərə 185) Quran insanlara nəsihət və rəhbərlik etmək üçün Allah tərəfindən göndərilmiş bir kitabdır. Buna görə də o insanlar üçün həyati önəm daşıyır. Quran oxumaq ibadətdir. Peyğəmbərimiz, (s.ə.s) də Allahın elan etdiyi vəzifə və məsuliyyətimizi dərk edib xatırlamağımız üçün müsəlmanları tez-tez Quran oxumağa təşviq etmişdir. Müsəlmanlar Ramazan ayında əvvəlkindən daha çox Quran oxumağa diqqət yetirirlər. Bunun üçün evlərdə və ya məscidlərdə toplaşaraq hər gün Qurandan iyirmi səhifə oxuyurlar.Ramazan orucu "Qurani-Kərim"in bilavasitə bu ayda nazil olması ilə əlaqəlidir. Müqəddəs kitabımızda adı çəkilən yeganə ay Ramazandır: "İnsanlara doğru yol göstərən, bu yolu açıq dəlillərilə aydınlaşdıran və haqqı batildən ayıran Quran Ramazan ayında nazil edilmişdir" (Əl-Bəqərə, ayə 185). Tez-tez rastlaşdığımız bir suala bir qədər əhatəli yanaşmaq hamı üçün maraqlı olar. Hər il oruclug ayrı-ayrı vaxtlara təsadüf edir. İslam dünyasının vacib, mühüm əməllərindən olan orucluq, həcc, eyni zamanda Fitr və Qurban bayramları, matəm tarixləri müsəlman təqviminə əsasən yerinə yetirilir. Hicri-Qəməri (yəni Ay) adlanan bu təqvim Ayın Günəşə və Yerə nisbətən vəziyyətindən asılı olaraq dəyişir. Bu nisbətdə ayın müxtəlif səthləri olur ki, bunlardan əsası hilal, yəni təzə aydır. Bu xüsusda "Qurani-Kərim" belə buyurur: "(Ya Mühəmməd!) Səndən hilallar (təzə aylar) barəsində soruşurlar. De ki, bunlar insanlar və həcc üçün vaxt ölçüləridir" (Əl-Bəqərə, ayə 189). Ayədən belə nəticə çıxır ki, Allah hilalları təzə ayın başlanğıcı və sonu kimi, vacib ibadətlər olan həcc və orucun vaxtının bilinməsi üçün zaman vahidi buyurub. Buna görə də təzə ayı görəndə oruc tutan insanlar, hilalı yenidən görəndə ibadəti bitirmişlər. İki təzə ay arasındakı zaman 25,5 Günəş təqviminin 1 ayına bərabərdir. Bu hesabla qədim ərəblər bu ölçünü zaman vahidi kimi qəbul etdiklərindən ayların bəzisi 29, bəziləri 30 gün olub. Başlanğıcını buradan alan və 12 aydan ibarət olan Qəməri təqviminə əsasən, il 354 gündən ibarətdir. Tarixin başlanğıcı İslam Peyğəmbərinin Məkkədən Mədinəyə hicrət etdiyi zamandan heablandığı üçün Hicri-Qəməri tarixi Məhərrəm ayı ilə başlanıb. İslamda bayram, matəm və ibadətlərin vaxtı bu təqvimlə müəyyən olunur. Günəş təqvimindən 10-11 gün qısa olan Ay təqvimində hər il ibadət və mərasimlərin tarixi 10-11 gün irəli keçir.



## Allah təala oruc tutanları əfv edər

Uca Peyğəmbərimiz (s.a.s) "Ramazanın sonuncu günündə Allah təala oruc tutanları əfv edər" söylədikdə səhabələr: "Ey Allahın rəsulu, o gün qədir gecəsidirmi?" deyə soruşdular. Peyğəmbər də "Bilmirsinizmi, iş görənə işi bitdikdə qarşılığı verilir" deyə cavab verdi (Beyhəqi). Bu mükafatları bilən müsəlman necə sevinməyə, bayram etməyə bilər? Bayram günləri sevinmək, nəşələnmək lazımdır. Hz. Əbu Bəkr qızı Aişənin (r) evinə getdikdə iki cariyənin dəf çalıb oynadığını görür. Onlar səhabələrin qəhrəmanlıqlarını mədh edir, şeir söyləyirmişlər. Hz. Əbu Bəkr Rəsulallahın (s) evində belə bir davranışın uyğun olmadığını və onların susmalarını tələb edir. Peyğəmbər də (s) Hz. Əbu Bəkrə "Onlara mane olma! Hər qövmün bir bayramı var, bu da bizim bayramımızdır. Bayram sevinc günləridir" dedi (Buxari). Hz. Əli isə belə deyib:"Bu gün orucu qəbul edilmiş, zəhmətinin mükafatını görmüş və günahları əfv edilmiş olanların bayramıdır".

Ölkəmizdə Ramzan bayramı Milli Məclisin qəbul etdiyi "Azərbaycan Respublikasının bayramları haqqında" qanununa əsasən qeyd edilir. Hər il dövlət səviyyəsində qeyd olunan Ramzan Bayramında ölkəmizin Prezidenti, Yenilməz Sərkərdə İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edir. Bu ildə Prezidentimiz xalqımıza bayram təbriklərini çatdırıb.Təbrikdə deyilir:"Hörmətli həmvətənlər! Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm. Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar. İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur. Əziz bacı və qardaşlarım!Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı Ramazan ayı başa çatır. Bu mübarək bayram münasibətilə bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.Allah orucunuzu, dua və niyyətlərinizi qəbul etsin.Ramazan bayramınız mübarək olsun!"

Nəhayət, fitrə zəkat kimlərə və nə zaman verilməlidir, sualına gəlincə qeyd etmək lazımdır ki, Ramazan ayının son günündə, axşam azanından sonra fitrə zəkat ayrılır və səhərisi günü bayram namazı qılmazdan əvvəl öz ünvanına çatdırılmalıdır. Müqədəs kitabımız "Qurani- Kərim"də zəkatdan söz açılır. Ümumilikdə 30 ayə fitrə zəkata həsr olunub. Ayələrdən bir neçəsində Allah zəkat verilməsini əmr buyurur. Məsələn, Nur surəsinin 56-cı, Müzzəmmil surəsinin 20-ci, Mücadələ surəsinin 13-cü ayələrini göstərmək olar. Bununla bərabər bir çox digər ayədə də sədəqə və infaq, yəni Allah yolunda malından-pulundan xərcləmə, ehtiyaclılara əl tutma, yardım etmə haqda buyurulur. Sərxoşluq edən, narkotika daşıyıcısı olan, dilənçilik edən insanlara fitrə zəkat verilməz. Fitrə zəkat kimsəsiz, fağır, yoxsul, xəstəlikdən əziyyət çəkən insanlara və ailələrə verilməlidir.Fitrə zəkatı kimi adambaşına 3 kq arpa, buğda, düyü, xurma və ya bu kimi ərzaq məhsulları hesabı ilə çıxarılır.Fitrə zəkatının vacibliyini Məhəmməd peyğəmbər hicri 2-ci ildə, Ramazan ayı bitdikdə oxuduğu xütbə zamanı buyurub. Ramazan Bayramında bütün küsülülərin barışması tövsiyyə olunur, ailələr bir-birinin evlərinə getməli və bayram münasibəti ilə bir-birini təbrik etməlidirlər.

Biz də Müqəddəs Ramazan Bayramı münasibəti ilə xalqımızı təbrik edir, oruc tutub namaz qılanların tutduqları orucun, qıldıqları namazlarının, etdikləri dualarının Allah tərəfindən qəbul edilməsini arzu edirik.

Ramazan Bayramınız Mübarək!

**İ.ƏLİYEV**

# Sürücülük vəsiqəsini necə aldım?

## Əgər savadlı sürücü olmağı qarşınıza məqsəd qoymusunuzsa, istəyinizə mütləq nail olacaqsınız

***Həmişə o fikirdə olmuşam ki, şəxsi avtomobil kişidən çox qadına lazımdır. Həm ictimai nəqliyyat basabasında sıxılıb qalmaması, həm də uşaqların bütün dərs və məşğələ marşrutunu daha çox ana həyata keçirdiyi üçün. Məktəb və bağçalara uşaq aparıb-gətirən valideynlərin əksəriyyəti analardır və onların günü ya ayaqüstə avtobus-metroda, ya da piyada yollarda keçir. Şəxsi avtomobili olan və yaxud ailə avtomobilindən istifadə edən qadınlar bu çətinliyi yaşamırlar. Amma avtomobili təhlükəsiz idarə etməsi üçün hər kəsin savadlı sürücü olması mütləqdir. Yol hərəkəti qaydalarını bilməli, qəza anında çevik reaksiya qabiliyyəti olmalı, övladları olan avtomobildə təhlükəsizliyi maksimum təmin etməlidir. Yaxşı, bunu bilən nə qədər sürücü var yollarda?***

### Gənclər sürücülük vəsiqəsi almaq üçün çox həvəslidir

Əvvəlcə qeyd edim ki, xüsusilə, gənc nəsil sürücülük vəsiqəsi almaq üçün çox həvəslidir və bu prosesdə mən onlarla gəncin imtahan uğurunun şahidi oldum. Sürücülük imtahanında iştirak etməyi qarşıma məqsəd qoyduğum gün oxumağa başladım. Bu sahədə ən müfəssəl məlumatlar toplusu Əziz Talıbovun yol hərəkəti qaydaları haqqında olan kitabı və test toplusudur. Burada kiçik bir irad bildirəcəyəm, sürücülük vəsaiti kitabının dili çox qəlizdir, cümlələr çox mürəkkəb və dolanbac yolla yazılıb, fərdi hazırlaşan tələbələr üçün anlaşılması çətindir. Məhz bu səbəbdən əksər hazırlaşanlar müəllim izahına ehtiyac duyurlar.

Mən də eyni vəziyyəti yaşadım. Bir neçə gün vəsaiti oxudum, amma anlatma dili çox qarışıq olduğu üçün müəllimə ehtiyac duydum. Axtarışa başladım. Facebook sosial şəbəkəsində bununla bağlı baş çəkdiyim səhifə və qruplardan ən çox "Sürücülük vəsiqəsinə hazırlaşanlar" qrupunun üzvü olduğunu və aktivlik səviyyəsi 100 faiz olduğunu müşahidə etdim. Qrupa üzv oldum və sual-cavablarda iştiraka başladım. 1 həftə sonra qrup rəhbəri Cavidan Əhmədov yazıb bildirdi ki qrupun aktiv üzvləri üçün pulsuz online dərslər təşkil olunacaq və mən də o dərslərdə iştirak haqqı qazandım.

Dərsləri müəllimlər Elmir Nəcəfov və Xəyalə Mustafayeva tədris edir. Normalda dərs paketi 100 manatdır, bu qiymətə müəllimin 5 həftəlik dərs proqramı, (ilk dərs ödənişsiz), dərs vəsaitlərinin verilməsi (həm kitab, həm də elektron), müəllimlərin tərtib etdiyi xüsusi dərs planı, pulsuz sınaq imtahanları və imtahandan keçənədək təkrar dərslər və s. daxildir. Burada qeyd etməliyəm ki, savadlı sürücü ola bilmək üçün bu məbləğ pulsuz deyiləcək qədər azdır.

### İmtahana müəllimlə hazırlaşmaq daha rahatdır

Nəzəriyyə müəllimi Elmir Nəcəfovla yolumuz beləcə kəsişdi. Əvvəlcə online sürücülük dərsindən əyani dərs səviyyəsində bəhrələnməyin mümkün olmayacağı düşüncəsində idim. Amma Elmir Nəcəfovun rəvan izahı, dərs üslubunu gördükdən sonra elə ilk dərsdən səhv etdiyimi anladım. Şəkillərlə və təsvirlərlə hər maddənin, hər qaydanın izahı o qədər peşəkar formada başa salınırdı ki, yol hərəkəti qaydaları haqqında heç nə bilməyən adamlar belə rahatlıqla başa düşürdü. Beləcə hər gün online dərsdə iştirak etməklə 5 həftəlik dərs prosesi başa çatdı.

Sonra imtahanda iştirak edə bilmək üçün tələb edilən sağlamlıq arayışını aldım, bu imtahana hazırlaşanlar üçün vacib prosesdir deyə proseduru yazıram. Qeydiyyatda olduğumuz poliklinikada xəstəlik tarixçəmiz və hazır blank verilir, üstündə də bütün həkimlərin qəbul qəbzi olur. Oftalmoloq, otorinolarinqoloq, endokrinoloq, nevropatoloq, cərrah, pediatr, psixiatr, kardioloq müayinələrindən keçilir, qan və sidik analizi verilir, rentgen çəkilir, narkoloji müayinəyə göndərilir, qadınlar ginekoloji müayinə də olunurlar. Bütün müayinələr blanka daxil edilir, yekunda blank baş həkimin möhürü ilə imzalanır. Bu arayış üçün hazırkı dövlət rüsumu 40 manat təyin edilib və 3 il müddətində qüvvədədir.

### Rüsumlar necədir?

İlk sürücülük vəsiqəsi imtahanı üçün rüsum 40 manat 40 qəpikdir. Sonrakı imtahanlar üçün rüsum 20.40 qəpik müəyyənləşdirilib. Bakıda, Baş Dövlət Yol Polisi İdarəsinin imtahan mərkəzində, oxuyub şəhadətnaməsini aldığım sürücülük məktəbinin imtahan günündə imtahana girdim. Məlumat üçün qeyd edim ki siz yalnız B kateqoriyalı sürücülük vəsiqəsi almaq üçün 2 dəfə şəhadətnaməsiz imtahan hüququnuzdan istifadə edə bilərsiniz. Əgər hər ikisində də kəsilsəniz üçüncü imtahanda iştirak üçün şəhadətnamə tələb edilir. Digər kateqoriyalı sürücülük vəsiqəsi üçün bütün hallarda şəhadətnamə tələb olunur.

İmtahan salonunda kompyuterlər vasitəsilə 10 sual verilir, 15 dəqiqə ərzində 9 düz cavab yazmalısınız, bu imtahandan keçmək üçün kifayətdir. İlk imtahanda 5 düz yaza bildim, vaxtımı doğru tənzimləyə bilmədim. İki həftə sonra ikinci imtahanda iştirak etdim, bu dəfə 8 düz yaza bildim, yenə kəsildim. Üçüncü imtahanımda 7 düz yazdım və yenə kəsildim. Ruhdan düşmədim və yenə təkrar dərslərə başladım. 4-cü imtahanımda 8 dəqiqə ərzində 9 düz cavab yazmaqla uğurla keçdim. Ümumilikdə 2 ay ərzində 4 nəzəri imtahana cəmi 100 manat rüsum xərcim çıxdı. Xırdalandakı imtahan mərkəzində bir sürücülük məktəbinin ayda 2 imtahan günü olur.

### Praktiki imtahana hazırlıq

Nəzəri imtahanı verdikdən sonra praktiki imtahan meydançasına gedirsiniz. El arasında buna "yezda" deyirlər. Nəzəri imtahandan keçdiyiniz gün girəcəyiniz praktiki imtahan üçün rüsum ödəmirsiniz, bu imtahanı da verə bilsəniz elə həmin gün 30 AZN dövlət rüsumu ödəyib yarım saat ərzində sürücülük vəsiqənizi alırsınız. Amma praktiki imtahandan kəsilsəniz növbəti dəfə imtahanda iştirak üçün 20.40 qəpik rüsum ödəyəcəksiniz. İlk praktiki imtahanıma formal olaraq girdim, nəzəri imtahana hazırlaşdığım üçün praktiki təcrübəm çox az idi. Buna görə də doğru etmədiyim manevr xətasına görə imtahandan kəsilməyim tamamilə normal idi. İmtahanı götürən inspektor səhjvimlə bağlı öz tövsiyyələrini verdi və növbəti imtahana qədər yaxşı hazırlaşmağı tapşırdı.

Başladım praktiki imtahana hazırlığa. Hər gün işdən sonra hərəkət və yaşayış olmayan ərazidə təlimlə məşğul oldum. Mən müəllimsiz hazırlaşmağı seçdim, amma təlim müəllimi ilə də hazırlaşa bilərsiniz, bir dərs təxminən 20-25 manata təklif edilir. Əgər sürücülüklə bağlı ən kiçik təcrübəniz yoxdursa 10 dərs almaqla praktiki imtahandan uğurla keçə bilərsiniz. 2-ci praktiki imtahanımda təhlükəsizlik adacığını və 1.1 xəttini tapdadığım üçün kəsildim. Həvəsdən düşmədim və yenidən hazırlaşmağa başladım. 3-cü praktiki imtahandan uğurla keçdim.

### Yaxşı sürürsənsə kəsmirlər

İmtahanı Xırdalanda yerləşən imtahan mərkəzinin meydançasında, Kia Rio avtomobili ilə verdim. İmtahanı hansı avtomobillə verməyin seçimini siz edirsiniz, sürət qutusunun avtomat, yaxud mexaniki olmasını seçmək imkanı verirlər. Əgər avtomat sürət qutusu olan avtomobillə imtahan versəniz sürücülük vəsiqənizin arxasında "auto" qeydi olur və siz sonra həmin vəsiqə ilə sürət qutusu mexaniki olan avtomobil idarə edə bilmirsiniz. Amma sürət qutusu mexaniki olan avtomobillə imtahan versəniz hər ikisini idarəetmə hüququ qazanırsınız.

İmtahan başladı. Əvvəlcə kəmərimi taxdım, imtahanı götürən inspektordan da kəmərini bağlamasını xahiş etdim, güzgülərimi nizamladım. Oturacağa toxunmadım, çünki mənə uyğun pozisiyada idi. Polis əməkdaşı bunu irad tutdu, amma ayaqlarıma uyğun vəziyyətdə olduğunu dedikdən sonra razılaşdı. Maşını işə saldım, dönmə işığımı yandırıb imtahan meydançasına çıxdım.

Döndüyüm istiqamətdə təhlükəsizlik adacığı vardı, adacığı tapdamadan keçdim, qarşıda piyada zolağı xəbərdarlıq nişanı gördüyümü, piyada zolağı olacağını dedim, zolaqda sürətimi azaldıb dayandım, "piyadaya yol verirəm" dedim, keçdim. Svetafor göründü, amma işıqlar yanmırdı, "işıqfordayam, yaşıl yanır, keçirəm" dedim və davam etdim. İmtahanda hər şeyi izahla, danışaraq etməyiniz sizin xeyrinizədir.

Qarşıda yük və minik avtomobillərinin məcburi istiqamətləri nişanları vardı, biri sağa, digəri sola. Məni yük avtomobillərinin məcburi istiqamətinə-sağa yönləndirdi. Etiraz etdim, "mən minik avtomobili idarə edirəm" dedim və sola döndüm. Razılıq etdi. Qarşıda park ərazisi göründü, plastik vasitələrlə park etmə yerini nişanlamışdılar, arxa-arxaya onun içinə girməyimi və səkiyə paralel park etməyimi istədi, maneələrə toxunmadan problemsiz girdim. Sonra park yerindən çıxmağı dedi, çıxdım, çıxarkən güzgülərə baxın və dönmə işığına diqqət edin, əməl etməsəniz imtahandan kəsilmə səbəbiniz bu ola bilər. İmtahanda parklama qabiliyyətinə xüsusi diqqət edirlər və müxtəlif cür park etdirirlər.

Sonra ziq-zaq üsulu maneəni keçməyi istədi, maneəni rahatlıqla keçdim. Sürməyi iriqabaritli nəqliyyat vasitəsində öyrənsəniz imtahanda verilən avtomobili idarə etmək nisbətən rahat olar. Xırdalandakı imtahan meydançasında geriyə dönmə üçün iki nişan qoyulub, biri minik, digəri yük avtomobilləri üçün. Nişanları tanıyan istənilən adam rahatlıqla ayırd edə bilir. İmtahan götürən inspektor minik avtomobilində imtahan verən tələbəni yük avtomobilləri üçün dönmə istiqamətinə yönəldir bilərəkdən, nişanın fərqində olmasan kəsiləcəksən.










### İnspektor çox səbirli idi

İmtahanı götürən inspektor Rüfət adlı orta yaşlı polis əməkdaşı idi. Olduqca mülayim, səbirli insandır. Həyəcanlanmadan imtahan verməyim bir az da onun sayəsində oldu. Təmkinini pozmadan tələbənin manevr etməsini gözləyir, səhviniz olarsa səbirlə izah edir. İmtahan boyunca cəmi 1 səhvim oldu, dönmə işığını gec - yolayrıcına girdikdən sonra yandırdım. Səhvimin fərqində olduğumu dərhal dedim. Etiraz etmədi, avtomobili dayandırmağımı söylədi, səhvimlə əlaqədar tövsiyə verdi, imtahandan keçdiyimi dedi və uğur arzuladı. İmtahan binasına qayıdıb xəzinəyə sürücülük vəsiqəsi üçün 30 manat dövlət rüsumu ödəyib şəkil çəkdirdim, 10 dəqiqə sonra B kateqoriyalı sürücülük vəsiqəmi aldım.

Praktiki imtahanlara ümumilikdə 40 AZN rüsum ödəmişdim. 100 AZN nəzəri imtahanların rüsumu, 40 AZN praktiki imtahanlara ödədiyim rüsumlar, 30 AZN vəsiqə üçün tələb edilən rüsum - sürücülük vəsiqəsi üçün ümumilikdə imtahanlar daxil olmaqla 170 AZN dövlətə rüsum ödədim. Əlavə heç bir xərcim çıxmadı.

Bu prosesdə bir şeyi öyrəndim. Əgər savadlı sürücü olmağı qarşınıza məqsəd qoymusunuzsa istəyinizə mütləq nail olacaqsınız. Sizin iradənizin, əzminizin qarşısında heç nə dayana bilməz. Əksinə, israrla imtahana gedən tələbələrə qarşı rəğbət gördüm imtahan mərkəzində. İmtahana hazırlaşdığınızı görənlər sizi həvəsdən salmağa çalışacaqlar, sürücülük vəsiqəsini almağın mümkün olmadığını deyəcəklər. Heç kimi dinləməyin və davam edin. Siz mütləq bacaracaqsınız.

*Lalə Mehralı*

ARAŞDIRMA

# Aİ missiyası barədə PUÇ OLAN ÜMİDLƏR

Vətən müharibəsi, Azərbaycanın möhtəşəm qələbəsi ilə tarixə qızıl hərflərlə yazılan 44 günlük müharibənin ardınca, son illərdə sərhəddə erməni təxribatları fonunda müxtəlif döyüş əməliyyatlarının olduğunu, təxribatçılara layiqincə cavab verildiyini hamımız bilirik, amma separatçıların Laçında son təxribatlarına ordumuzun cavabı xüsusilə diqqəti cəlb etdi, çünki bu, Paşinyan hakimiyyətini bərk silkələdi və rəsmi İrəvanda ciddi rezonans doğurdu. Dəvət etdiyi Avropa İttifaqı missiyasına boş yerə güvənərək, Bakı ilə mübahisələrini beynəlmiləlləşdirmək, Qarabağ münaqişəsini "yenidən dondurmaq" arzusuna düşən revanşistlər də, Aİ-nin Ermənistanda fəaliyyət göstərən polis-mülki monitorinq missiyası fonunda onların təxribatlarına Azərbaycanın sərt cavabını gördükdə, xəyalları ilə deyil, qəbul etmək istəmədikləri reallıqla üz-üzə



qaldılar, hansı ki, bu reallıq ölkəmizin haqlı olması ilə daha böyük qüvvət, qüdrət sahibi olmasını təsdiq etdi.

Son döyüşlərin nəticələrinin erməniləri təlaşlandırması müxtəlif mərtəbələrdə və məqamlarda özünü göstərmiş oldu. İşğaldan azad etdiyimiz ərazilərimizdə dəniz kimi dalğalanan bayraqlarımıza əli çatmayan, yaxın düşə bilməyən hansısa erməninin beynəlxalq idman tədbirində əlinə səhnədəki bayrağımızı keçirib yenə də namərdcəsinə hərəkət etməsi, onu yandırması ən çirkin addım olmaqla bərabər, təlaşın, qorxunun, son döyüşlərdə də əldə etdiyimiz qələbədən doğan qıcığın təzahürü idi. Bəli, göründüyü kimi, sıravi ermənidən tutmuş, Nikola qədər hər biri onsuz da təlaş içindədirlər. Amma bu azmış kimi, həmin ölkənin Təhlükəsizlik Şurası katibinin fikirləri bu qorxunun, təlaşın nə dərəcədə, hansı həddə olduğunu ortaya qoyur. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın döyüşlərin nəticələri ilə bağlı bəyanatına diqqət etdikdə bunun əyani şahidi oluruq. "Biz gözləyirik ki, Brüssel Azərbaycanın təxribatlarının qarşısını almaq üçün addımlar atacaq... Dığ kəndi yaxınlığında baş vermiş insident Aİ müşahidəçiləri üçün də problemdir, çünki Aİ müşahidəçilərinin yerləşdirilməsi gözlənildiyi kimi, Azərbaycan üçün çəkindirici olmalı idi", deyən Armen Qriqoryan açıq şəkildə etiraf edir ki, Avropa İttifaqı missiyasına ermənilər çox güvənibləe və hətta onların olmasından sui istifadə ediblər. Elə zənn ediblərsə ki, Aİ missiyasını dəvət etməklə ağıllarına gələni edəcəklər, təxribat belə törədəcəklər, amma buna cavab olmayacaq, yanılıblar. Azərbaycan müstəqil, suveren dövlətdir və bu dövlətə qarşı hər hansı təxribata görə dərhal cavab verilib, bundan sonra da belə olacaq və hansısa missiyanın, hansısa təşkilatın, qurumun olması bunun qarşısını ala bilməz.

Bu gün erməni cəmiyyətini narahat edən ən ağrılı məsələ artıq Aİ missiyasının da kölgəsinə sığına bilməmələridir. Bir növ həmin cəmiyyətin bu missiya ilə bağlı ümidləri tamamilə puç oldu. Halbuki, ermənilər elə hesab edirdilər ki, Aİ missiyası Ermənistanda peyda olmaqla bir növ hər şeydən sığortalanacaqlar və bundan sonra da onların kölgələrində kölgələnərək ağıllarına gələni edəcəklər, haylara buna görə cavab da verilməyəcək. İndi görəndə ki, Aİ missiyası belə Azərbaycanı öz haqq işindən döndərməkdə, öz haqq yolundan yayındırmaqda acizdir ermənilərin başına elə bil daş düşmüş oldu. Əvvəla onlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzuna, söz sahibi olduğuna, haqlarını müdafiə etmək əzmində olduğuna daha dərindən əmin oldular. Digər tərəfdən də haylar sözügedən bu missiyanı dəvət etməklə rusları da incik salıblar və o tərəfdən də təhlükəsizliklərini qoruyanları əldən çıxarıblar axı.




Belə desək daha dəqiq ifadə etmiş olarıq ki, son döyüşlərdən sonra ermənilər Aİ missiyasını dəvət etdiklərinə görə çox peşman olublar.

Azərbaycan və Ermənistan sərhədində Laçın istiqamətində gedən döyüşlərdən sonra ermənilər bir növ diksiniblər. Əraziyə davamlı olaraq Ermənistan ordusunun canlı qüvvə və texnikasının toplanması belə təəssürat yaradırdı ki, erməni tərəfi ciddi addımlar atmağa hazırlaşır və hərhansı qarşıdurmaya getməklə hətta strateji vəziyyəti dəyişməyə də can atır. Qarabağdakı separatçı qüvvələrin qalıqlarını təchiz etmək, onların mövcudluqlarını qorumaq baxımından Laçın rayonunda kommunikasiyaların əsas strateji əhəmiyyəti təkzib edilə bilməz və bu mənada Laçın istiqamətində növbəti kəskinləşmənin ola biləcəyi kifayət qədər məntiqli görünürdü. Ona görə ki, Qarabağda erməni separatizminin Laçınsız heç bir şansı qalmır və separatçılar bunu elə ötən əsrin sonlarında da yaxşı bilirdilər, indi də yaxşı bilirlər. Əks halda, Laçına strateji ərazi kimi baxmazdılar. İndi Laçında Azərbaycanın nəzarət imkanlarının onlar üçün nə demək olduğunu başa düşmək heç də çətin deyil və niyə ermənilərin kürkünə birə düşdüyü də bəllidir. Həm də rəsmi Bakının bu nəzarət imkanlarının artması fonunda Aİ missiyasının heç bir rıçaq sayılmadığını görən ermənilər həmin missiya barədə də ümudlərinin puç olduğunu başa düşmək məcburiyyətində qalıblar.

Separatçı silahlı birləşmələr Laçın dəhlizindən Ermənistanla Xankəndi arasında keçən yoldan istifadə etmək üçün bütün imkanlarını itirdikdən sonra alternativlər axtarmağa başlamışdılar. Beləki, hava şəraiti və yazın gəlişi imkan verən kimi, xəlvəti torpaq yollarından istifadə etməklə məsələnin həllini tapmış olduqlarını düşündülər. Amma bu, Azərbaycan üçün qəbuledilməz idi və martın 5-də separatçılarla məlum toqquşmaya gətirib çıxaran səbəb də bu oldu. Separatçıların xəlvəti şəkildə əlavə yoldan istifadə etmək, silah-sursat daşımaq, vəziyyəti gərginləşdirmək cəhdlərinə son qoyuldu. Buna nə sülhməramlı kontingenti, nə də Aİ missiyası qarışa bilməzdi, çünki Azərbaycan öz ölkəsinin, öz ərazilərinin təhlükəsizliyini qorumaqdadır və bu onun suveren hüququ, hətta missiyasıdır. Bu istiqamətdə görülən tədbirlər çərçivəsində martın 25-də Azərbaycanın Müdafiə Nazirliyi Laçın yolunun şimalındakı




torpaq yollarını nəzarətə götürdüyünü açıqlayıb. Sonradan məlum olub ki, həmin gün Azərbaycan ordusu çıxıb Şuşa rayonunun Allahqulular və Zamanpeyəsi kəndlərində, eləcə də ona bitişik yüksəkliklərdə möhkəmlənib. Xəritəyə qısa nəzər salanda Laçınla Xankəndi rayonundakı separatçı qüvvələrin qalıqları arasındakı, eləcə də bu yaşayış məntəqələri arasındakı yolların yaxınlığında - dağlıq ərazidə bu ərazilərin strateji əhəmiyyəti təkzibedilməzdir və bu, əraziyə tam nəzarət etmək deməkdir. Eyni rakursda Azərbaycan Müdafiə Nazirliyinin 30 mart tarixli müraciəti də diqqəti cəlb edir və bu çox ciddi bir mesaj olaraq qəbul edilir. "Yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar bir neçə dominant yüksəklik, əsas və köməkçi yollar, eləcə də geniş sərhəd ərazisi Laçın rayonunun Cağazur və Zabux kəndləri arasındakı ərazi nəzarətə götürülüb", mesajı o deməkdir ki, separatçıların Ermənistandan təchiz olunmaq imkanları ciddi şəkildə məhdudlaşdırılıb. Şübhə yoxdur ki, gec-tez Azərbaycanın Laçın rayonunun girişində nəzarət-buraxılış məntəqəsi də quraşdırılacaq. Bu addımların qarşısını almaq üçün isə rəsmi İrəvanın nə hüququ, nə də ixtiyarında heç bir vasitə, rıçaq yoxdur.

"Biz həmçinin daha əvvəl elan etdiyimiz prinsiplər əsasında regional iqtisadi və nəqliyyat əlaqələri açmağa hazırıq. Biz həmçinin Praqa və Soçi razılaşmaları əsasında sərhədlərin delimitasiyasına hazırıq", deyə Paşinyan hökumətin iclasında kəkələyə-kəkələyə bəyan edib və bu, onun ötən həftənin cümə axşamı olan döyüşlərdən sonra "büzüşməsi", təslimiyyəti, qorxusu kimi xarakterizə olunur. Politoloqlar hesab edilər ki, Nikolun belə bir ifadəsi onun öz acizliyini qəbul etməsi kimi görünür. Bu acizliyi onun digər fikirlərində daha bir şəkildə təzahür edir. "Azərbaycanın hərəkətləri təxribat xarakterlidir, Praqa və Soçidə qəbul edilmiş bəyanatlarla ziddiyyət təşkil edir. Siyasi qiymətləndirmə nöqteyi-nəzərindən hesab edirəm ki, Aİ-nin yaydığı mesaj mühümdür, burada 1991-ci il sərhəddi vurğulanır və söhbət Ermənistan SSR ilə Azərbaycan SSR arasındakı inzibati sərhəddən gedir. Aİ-nin bəyanatında deyilir ki, bu sərhədə hörmət edilməlidir", deyən erməni baş nazir öz ölkəsinin başçısı kimi deyil, ağdərili müstəmləkəçilərin, Qərbin xidmətində olan yerli lider kimi çıxış edirsə, hər şey bəllidir. Bəlli olan isə odur ki, əvvəla Paşinyan bərk qorxuya düşüb və öz fikrini belə bildirməyə cəsarət etməyib, tam şəkildə Aİ-yə istinad edib. Ola bilsin Paşinyan ümid edir ki, İrəvanın bu cür qərbyönümlü davranışından sonda yararlana biləcək, amma bu mənada da yanldığının tezliklə şahidi olacaq, eyni ilə Avropa İttifaql missiyası ilə bağlı olduğu kimi. Bir sözlə, bu dəfə də arzularının puç olduğunu görəcək.

Laçın yolunun bağlanması, yaxud da həmin yolda nəzarətin Azərbaycan tərəfinin əlinə keçməsi qorxusu onsuz da Paşinyanın yaxasını heç zaman buraxmayıb. Çunki Nikol Vovayeviç bilir ki, separatçıların silahlı qüvvələrinin təchizatı olmadan onlar çox davam gətirə bilməzlər. Erməni baş nazirin bu istiqamətdə təlaşını, qorxusunu hiss edən Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da öz mövqeyini bildirib. "Biz Laçın məsələsi ilə bağlı danışıqlar aparmayacağıq, orada çoxdan hər şey göstərilib və Rusiya Federasiyası Azərbaycanı dəhlizdən çıxarmalıdır", deyə Armen Qriqoryan CivilNet-ə müsahibəsində həmin ərazilərdə beynəlxalq oyunçuların da iştirakına ehtiyac olduğunu bildirib. Bunu da onunla əsaslandırıb ki, Rusiyanın mövcudluğuna baxmayaraq, bir çox təhlükəsizlik məsələləri həll olunmur". Aydın şəkildə ifadə etmiş olsaq, Ermənistan Təhlükəsizlik Şurasının katibinin fikirlərindən belə məlum olur ki, bu işğalçı ölkədə ümidlər Qərbə bağlanıb. Buna ümud etməyə dəyər, yaxud dəyməz, bunu ümumilikdə ermənilər artıq çoxdan anlamalı idilər.

Ermənilər heç olmasa düşünməli idilər ki, görəsən Qərbin özünün buna ehtiyacı varmı? Azərbaycanla sərhəddə Ermənistandakı Aİ polis-mülki missiyası haqqında bu yaxınlarda Politico-da dərc olunan məqalə buna aydınlıq gətirmək, sualın cavabını düşünmək üçün kifayət edir. "Biz patrul xidməti və başqa məsələlər haqqında bütün lazımi məlumatları Azərbaycanla paylaşırıq, çünki heç bir problem istəmirik", deyə məqalədə adının açıqlanmasını istəməyən Aİ-nin yüksək rütbəli diplomatik rəsmisindən sitat gətirilir. Deməli, məsələ bəllidir. Elə buna görə də Ermənistanın müxalifət siyasətçiləri açıq şəkildə deyirlər ki, Avropa İttifaqının Azərbaycanla sərhəddə mülki monitorinq missiyasının başlamasından sonra Aİ siyasətində Ermənistan heç bir dəyişiklik görmür. Həttə beziləri belə düşünməyə başlayblar ki, bu missiya Qərbin öz problemlərinin həlli və Rusiyanın Ermənistandan sıxışdırılması üçün sadəcə başlanğıc addımdır. Deməli, getdikcə digərlərinin də əsassız, boş ümidləri puça çıxacağı gözlənləndir və Azərbaycanın yaratdığı reallığı qəbul etmək məcburiyyəti qaçılmazdır.

**_İnam Hacıyev_**

# Uşaq intiharlarında günah kimdədir?

## Uşaqları intihar edən valideynlərdən digər uşaqları alınmalı, özləri isə həbs olunmalıdır

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*

Son 20 ildə Azərbaycanda intiharların sayının 5 dəfə artmasının səbəblərini analiz edərkən, ortaya maraqlı məqamlar çıxır. Bunu bəziləri sosial problemlərlə, bəziləri isə psixoloji problemlərlə bağlayırlar. İntiharların bu qədər artmasının hansı sosial səbəbləri var və bu artımda "ədalətsiz cəmiyyət"in yaratdığı sosial bərabərsizliyin payı varmı, yoxsa psixoloji gərginlik buna gətirib çıxarır? Bunların hansının payı nə qədərdir? Bu suala cavab vermək üçün gəlin vəziyyətə baxaq.





Xüsusən də, uşaq, yeniyetmə və gənclər arasında intihar hallarının artması ürəkağrıdandır. Bu da onu göstərir ki, intihar cəmiyyətimizin çox ciddi sosial probleminə çevrilir. Və bu intiharların kökündə, əsasən, maddi problemlər dayanmır. Faktlar göstərir ki, az yaşda intihar edənlərin çoxu buna mənəvi-psixoloji vəziyyətlərindən dolayı əl atırlar. Baş tutmamış sevgi, narkotik maddələrdən istifadə, mənəvi deqradasiya, qlobal psixotron terrora məruz qalmaq və ruhi boşluğa düşmək (qayğı, diqqət, sevgi görməmək), təhqir olunmaq, zorlanmaq əsas səbəblərdəndir. Burada sosial, daha doğrusu maddi problemlərdən doğan səbəblərin payı son dərəcə azdır.

Son dövrdə isə yeni intihar səbəbi ortaya çıxıb. Bu da uşaqların ali məktəbə qəbul imtahanlarında yüksək bal toplaya bilməməsindən sonra canına qəsd etməsi ilə bağlıdır. Bir çox valideynlər uşağa ağır psixoloji təzyiq edirlər ki, mütləq filan qədər bal yığmalısan. Hətta "qəbul olmasan evə gəlmə", "bu qədər bal yığmasan gözümə görünmə" kimi ciddi psixotron terror vasitələrindən istifadə edirlər. Bu da bir çox hallarda intiharla nəticələnir.

Valideynlər öz eqolarını uşaqların üzərində tətbiq edirlər. Özlərinin reallaşdıra bilmədiyi şeyləri uşaqlara yükləyirlər, onları sevmədikləri sahəyə, istəyi, qabiliyyəti olmayan istiqamətə yönəldirlər. Onsuz da indiki tədris proqramı çox ağırdır və uşaq həddən artıq yüklənir.bir tərəfdən də valideynin davamlı təzyiqləri uşaqlartın canını boğazına yığır. Elçi gələndə "qızıma doplom vermişəm (?)", oğlumu filan yerdə oxutmuşam" deyə bilmək üçün.

Bu təhlükəli meyildən əl çəkmək lazımdır. Lakin bəzi valideynlər bunu dərk etmirlər. Bunu artıq ancaq inzibati metodlarla etmək yolu qalır. Uşağı belə ağır təzyiq səbəbindən intihar edən valideynlər sərt cəzalanmalı və həbs edilməlidirlər. Özünü öldürmə dərəcəsinə çatdırma Cinayət Məcəlləsində ayrıca bir maddə kimi nəzərdə tutulub.

Əgər uşaq lazımi bal yığa bilməyibsə həyat bitmədi ki? Gələn il yığar, o biri il yığar və qəbul olar. İkincisi də, lap yenə yığa bilmədi. Məcbur deyil ki, hamı ali məktəbə daxil olsun. Yəni, dünyada 8 milyard, ölkədə isə 10 milyon adam ali məktəbə daxil olmalı deyil ki. Yüzlərlə çox gözəl perspektivli peşələr var. Uşaqları peşə məktəblərinə, texniki kurslara cəlb edərək onun həyatda özünə yer tutmasına, özünə şəxsi biznes qurmasına dəstək vermək olar. Təcrübə göstərir ki, əlində diplom işsiz qalan və ya az maaşa işləyənlərdənsə beləlləri daha çox uğur qazanırlar. Göründüyü kimi, valideynlərin bu təzyiqi əsassız və məntiqsizdir.

Psxotron təzyiqdə, mənəvi dəyərləri məhv etməkdə və qeyri-sağlam həyat tərzini təbliğ etməkdə medianın və internet resursların da rolu böyükdür. Bəzi özəl televiziyalar və orada çıxış edən bir çox şəxslər var güclə-ri ilə insanların- xüsusən yeniyetmə və gənclərin əxlaqını pozmağa, ailə institunu dağıtmağa, uşaq tərbiyəsini lazımsız bir şeyə çevirməyə açıq şəkildə səsləyir. Seriallar, şou verilişlər mənəvi dəyərləri məhv edir.

Valideynlərin çoxu uşaqlarının tərbiyəsini buraxıb televiziyanın, internetin öhdəsinə. Hər uşağın əlində bir yekə smartfon alıb verib canlarını qurtarıblar. Onların yerinə uşaqlarını kimlər tərbiyə, edir, kimlər yönəldir heç veclərinə də deyil.

Uşaqlar cəmi 30 il əvvəlki ənənəvi məkanlarından- yaradıcılıq mərkəzlərindən, istirahət düşərgələrindən, idman salonlarından... ayrılaraq küçələrə tərk edilib. Ən yaxşı halda dəhşətli oyunlar oynadıqları, pornoya, zorlamaya, qanlı döyüş səhnələrinə baxdıqları "virtual dünyaya" buraxılıb.

Uşaq və yeniyetmələrin asudə vaxtlarının təşkili, onların öz enerjilərini bədii yaradıcılıq, elmi-texniki inkişaf və idman sahəsində realizə etmələri üçün imkanlar çox azdır. Belə mərkəzlərin sayı az, aylıq haqqı yüksəkdir. Əksər valideynlər uşaqlarını belə mərkəzlərə yönəldə bilmir. Ona görə də, dövlət bu sahədə ciddi konsepsiya işləyib hazırlamalı və həyata keçirməlidir. Uşaq və yeniyetmələrə pulsuz dərnəklərə cəlb olunmalıdır.

İntiharların kəskin artması cəmiyyətdə mənəvi-psixoloji, əxlaqı dəyərlərin dəyişməsinin əyani təzühürüdür. Burada sosial problemlərin təsirini əsas götürənlərlə razılaşmıram, bu faktor bəlkə bir neçə faiz rol oynaya bilər. Müqayisə üçün baxın, intiharların səviyyəsi məhz inkişaf etmiş, əhalisinin maddi təminatı yaxşı olan ölkələrdə daha yüksəkdir. Və ya digər müqayisəyə baxaq- tarixin sosial-maddi cəhətdən ən ağır dövrlərində intiharlar çox az olub, amma indi dəfələrlə çoxdur. Misal üçün, bəşər tarixinin 2-ci dünya müharibəsi illərindən ağır dövrü olmayb, onda intiharlar çox cüzi idi. Uşaq və yeniyetmə intiharına isə son 30 ilədək demək olar ki, rast gəlinmirdi.



Uşaqlarına sahib çıxmayan onların tərbiyəsi ilə məşğul olmayan, onlara vaxt diqqət və ayırmayan, qayğı göstərməyən fasiləsiz olaraq nəzarət etməyən valideynlərin övladları böyük risk altındadır. Uşaqlara tərbiyə verməyi arxa plana atıb, onları tam nəzarətsiz buraxıblar. Siz heç əlində kitab qəzet, kitab oxuyan və ya bir-biri ilə şahmat oynayan uşaq, yeniyetmə və gəncə rast gəlmisinizmi? Xeyr təbii ki. Amma əlində smartfon pozğun videolara baxan, qorxunc oyunlar oynayan, vaxtını bir- birinə şit və tərbiyəsiz videolar göndərməklə keçirənləri kütləvi görürük.

Azyaşlı uşaqların əlinə bahalı smartfonlar alıb verib yaxalarını çəkiblər kənara. İnternetdə ağla gələn və gəlməyən hər cür təhlükəli materiallar var- hansı ki, psixikaya çox ağır zərbə vurur, dəyərlər sistemini dəyişdirir, əxlaqsızlığı, narsizmi, eqoizmi, həyatda maddi həzz və əyləncədən üstün dəyər olmadığını təbliğ edir.

Elm sübut edib ki, televiziya insan psixikasına hər şeydən güclü təsir edir. Bu vasitə ilə onu istədiyi istiqamətə yönəldə bilirlər. Subliminal mesajlarla, 25-ci kadrlarla dolu olan videomateriallar, xüsusi frekansda və beyin xarab edən tonlarda mahnılar şüuraltına işləyir və yalnız pis məqsədlərə xidmət edir.

Mən hələ görməmişəm ki, özəl tv-lərdə alimlər danışa, elm, təhsil məsələləri müzakirə edilə, intellektual yarışlar təşkil edilə, müasir texnologiyalar öyrədilə, sağlam həyat tərzini təbliğ edilə. Yalnız dövlət kanallarında və ictimai televiziyada bu var.

Yəni, ətrafdan çox güclü psixotron təzyiq, daha doğrusu terror var. Uşaqları bu qorxunc dünyanın caynağına buraxmaq olmaz. Onlar bu psixotron terrorun öhdəsindən gələ bilməz. Ona görə də, istisnasız olaraq bütün bu kimi hallarda valideyn günahkardır.

Hələ də çox gec deyil, uşaqlarınıza sahib çıxın. Onların fiziki və mənəvi sağlamlığını təmin etmək sizin vəzifəniz, borcunuzdur. Əsl valideyn ola bilmirsinizsə, verin uşaqları internatlara. Bu, onlar üçün daha yaxşı olar. Bu gün faktiki olaraq bu dilemma qarşısındasınız- ikisindən birini seçin.

**Elçin Bayramlı**
**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri**

# Region universitetləri niyə Bakıya uduzur?



"Fikrimcə, tələbələrin regionda olan universitetləri seçməməsinin müxtəlif səbəbləri var. İlk növbədə Bakıda olan universitetlərin maddi-texniki bazası daha yaxşıdır. İkincisi, Bakıda yerləşən ali təhsil müəssisələrində ikili diplom və ya tələbə mübadiləsi vasitəsilə xarici universitetlərdə təhsil almaq şansı daha yüksəkdir".

Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Adil Vəliyev deyib.

Onun sözlərinə görə, eyni zamanda, tələbələrin sosial həyatı da onları düşündürən məsələlərdəndir: "Gənclər düşünür ki, regionlarda sosial mühitin genişləndirilməsi daha çətindir. Bakıda isə bunun üçün kifayət qədər imkan var. Bundan əlavə, tələbələr universitetlərin həm ölkədaxili, həm də ölkədən kənar beynəlxalq göstəricilərini də nəzərə alırlar. Xüsusilə də qəbul imtahanlarında yüksək bal toplamış abituriyentlər buna diqqət göstərirlər. Düşünürəm ki, Bakıda olan universitetlər kifayət qədər özünü inkişaf etdirib. Həmçinin, paytaxtda və ya Abşeronda fəaliyyət göstərən müəllimlərin də, regionda fəaliyyət göstərənlərə nisbətən özünü inkişaf etdirmək səviyyəsi daha yüksək olduğuna görə onlar arasında xeyli fərq var. Öz gələcəyini düşünən tələbələr də bunu nəzərə alırlar".

# "Qərbi Azərbaycanın elə kəndi yoxdur ki, orada halay olmasın"



"Türk dünyasının hər yerində yayılan kollektiv rəqs oyunlarından biri də halaydır. Halay qədim türk kollektiv rəqsidir, insanlar bunu ellikcə oynayıblar. Qərbi Azərbaycan ərazisi də halayların geniş yayıldığı bölgəmiz olub. Tarixən burada halay oyunları yayılıb, halay havaları formalaşıb. Qərbi Azərbaycanın elə kəndi, elə mahalı yoxdur ki, orada halay olmasın. Yaşlı nənələr danışırdılar ki, halay qurulardı, halay başı əlində dəsmal dəstəni hərəkətə gətirərdi, ordan da bir gəlin "halaya gəlin ay qızlar" deyərdi, qızlar-oğlanlar halaya qoşulardı. Uşaq olanda çoxlarımız ellərimizdə, obalarımızda halay qurulduğunu görmüşük". Bu sözləri SİA-ya açıqlamasında tədqiqatçı Füzuli Bayat deyib.

Onun sözlərinə görə, Qərbi Azərbaycanda - Şərur-Dərələyəzdə, Vedidə, Ağbabada, başqa bölgələrimizdə yayılan halaylarımız bu gün də insanların xatirində qalıb: "Bu gün Azərbaycan Respublikasında qaçqın həyatı yaşayan və öz doğma el-obalarına dönmək arzusunda olan qərbi azərbaycanlılar burada da halaylarını yaşadırlar.

Amma təəssüf ki, Qərbi azərbaycanlılar öz doğma evlərindən didərgin düşdülər və onların deportasiyasından sonra isə ermənilər Azərbaycan folklorunun Qərbi Azərbaycanda yayılan növlərinə əl uzatdılar. Azərbaycan xalqının folkor ansabllarını, musiqi alətlərini, milli geyimlərini, habelə saz, tar, zurna, ney, balaban kimi musiqi alətlərini, o cümlədən də yallı, halay rəqslərini mənimsəməyə çalışdılar. Bir sözlə, Qərbi Azərbaycan yallıları ermənilərin plagiatlığına məruz qalıblar. 30 ildən yuxarıdır ki, haylar bizim bu rəqsləri öz rəqsləri kimi, qələmə verməyə çalışırlar.



**Tədqiqatçı maraqlı faktlar açıqladı**

Məlum olduğu kimi, 2018-ci ilin 26 noyabr - 1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO -nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" bu təşkilatın Təcili Qorunma Siyahısına daxil edildi. Bununla da, Ermənistanın Azərbaycanın digər mədəni irs namizədləri ilə bağlı olduğu kimi, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin də qarşısı alındı. O dövrdə Ermənistana layiqli cavab verildi".

Tədqiqatçı sözlərinə davam edərək bildirib ki, ermənilər və Ermənistan öz təxribatlarından bu gün də əl çəkmir, yenə də yallı, halay rəqslərinə iddialarını irəli sürürlər: "Hətta o zaman torpaqlarımız işğalda olanda ermənilərin "yallı qrupları" konsertlər verirdilər. Ermənistanın baş naziri Paşinyanın da yallı getməsi hər kəsin yadındadır. Özgə atına minən tez düşər deyib atalarımız, Paşinyan da bu rəqsi tez tərk etdi. Ermənilər iddia edirdilər, hətta özlərini də inandırırdılar ki, bu guya onların rəqsidir, amma bütün dünyaya sübut olundu ki, yallı, halay Azərbaycan xalqının, türk dünyasının rəqsidir, halay havaları da ki, öz yerində.

Qərbi Azərbaycanın musiqi folklorunda xüsusi yeri olan halaylar, yallılar xalqımızın əbədi irsi olaraq yaşayır. Böyük qayıdışdan sonra yenə də Qərbi Azərbaycan ellərini halay havaları riqqətə gətirəcək, yenə də soydaşlarımız ellikcə yallı gedəcəklər. Bu da ermənilərin bütün çirkin niyyətlərini birdəfəlik iflasa uğradar".

***Ləman Əlizadə***

## 17 min dollar və 7 min manatlıq qızıl oğurlayıb evi yandırdı...

**Goranboyda 17 min dollar və 7 min manatlıq qızıl oğurlayaraq evi yandıran şəxs tutulub. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.**



Bildirilib ki, Yevlax Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ötən il mayın 26-da Goranboy rayonunun Xanqərvənd kəndindəki evlərin birindən 17.000 dollar, 550 avro pul və 7000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda və həmin evi yandırmaqda şübhəli bilinən Goranboy rayon sakini, əvvəllər məhkum olunmuş Namiq Rüstəmov müəyyən olunaraq saxlanılıb. Faktla bağlı araşdırma aparılır.



## Gələn ay birinci siniflərə qəbul başlayır

Mayın 11-dən 2023-2024-cü tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start veriləcək. Elm və Təhsil Nazirliyindən SİA-ya verilən xəbərə görə, qəbul prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılacaq.

# Bakıda ilk elektrik mühərrikli avtobus: Üstünlükləri nədir?

***Bakının marşrut xəttinə ilk elektrik mühərrikli avtobus buraxılıb. SİA xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyinin (BNA) İdarə Heyətinin sədri Vüsal Kərimli özünün "Facebook" səhifəsində yazıb. V.Kərimlinin sözlərinə görə, avtobus Çindən alınıb və 33 sərnişin oturacağına malikdir:***




"Dünyanın aparıcı elektrik mühərrikli avtobuslar istehsalçısı olan Çinin BYD şirkətindən test məqsədilə alınan 1 ədəd elektrik avtobusu 12 metrlikdir. 33 sərnişin oturacağına malik avtobusun ümumi sərnişin tutumu 82 nəfərdir. Batareya gücü 383 kVt/saat olan avtobus tam enerji dolumunda 350 km məsafə qət edə bilir. Nəqliyyat vasitəsi müasir sərnişindaşıma tələblərinə tam cavab verir".

BNA-nın rəhbəri bildirib ki, test müddətində elektrik avtobusunun Bakı şəhərinin mövcud relyefinə uyğunluğu yoxlanılaraq qiymətləndirilməsi aparılacaq: "Testin nəticələrinə əsasən elektrik mühərrikli avtobusların Bakı şəhərinin ictimai nəqliyyatında tətbiqi ilə bağlı təklif hazırlanaraq hökumətə təqdim ediləcək".

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL
YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**